

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 20 (811) ▪ 25 may 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Azərbaycan Prezidenti İlham Əliyev: «Biz qaçqınlığın və məcburi köçkünlüyün nə demək olduğunu çox yaxşı bilirik»

## İstanbulda keçirilən Dünya Humanitar Sammitində dövlətimizin başçısı nitq söyləyib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dünya Humanitar Sammitində iştirak etmək üçün mayın 22-də Türkiyə Respublikasına işgüzar səfərə gəliblər. İstanbulun Atatürk Beynəlxalq hava limanında Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Türkiyənin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri qarşılayıblar.

Mayın 23-də İstanbulda Dünya Humanitar Sammiti öz işinə başlayıb. Dünyanın humanitar fəlakət bölgələrində mövcud vəziyyəti və həmin ərazilərə yardımların çatdırılmasını əks etdirən təqdimatla başlayan sammitin açılış mərasimində çıxış edən BMT-nin baş katibi Pan Gi Mun bu mötəbər tədbirin keçirilməsinə verdikləri dəstəyə görə bütün dünya liderlərinə təşəkkürünü bildirib. Dörd il əvvəl bu ideyanın yaranmasına səbəb kimi dünyada humanitar böhranın getdikcə dərinləşdiyini deyən baş katib qeyd edib ki, bu böhran hər il dərinləşir və insanların çətinlikləri daha da artır. Pan Gi Mun humanitar böhranların səbəbinə çevrilən siyasi sabitsizliyin qarşısının alınmasının və mülki şəxslərin daha çox qorunmasının zəruriliyini qeyd edib. Qaçqın probleminin qarşısının alınmasında yeni forma və ideyaların yaradılmasının vacibliyini vurğulayan BMT-nin baş katibi böhran içərisində olan milyonlarla insanın problemlərinin həllində bütün dövlətləri və cəmiyyətləri həmrəy olmağa çağırıb. «Biz insanlara yaşamaq və şərəflə həyat sürmək imkanını verməliyik», - deyən Pan Gi Mun əmin olduğunu bildirdi ki, dünya liderləri bu prosesə güclü dəstək verəcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sammitin dünyada ehtiyac içində yaşayan milyonlarla insanın problemlərinin həlli baxımından mühüm imkan olduğunu bildirib. Müharibələrin, təbii fəlakətlərin, iqlim dəyişikliyinin bütün bəşəriyyətin təhlükəsizliyini və gələcəyini ciddi təhdid etdiyini deyən R.T.Ərdoğan Türkiyənin humanitar problemlərin həllində fəal rol oynadığını və təmsil etdiyi dövlətin bu gün dünyanın 140-dan çox ölkəsində humanitar yardım və sosial inkişaf sahəsində müxtəlif layihələr reallaşdırdığını diqqətə çatdırıb. Hazırda qlobal humanitar yardım sisteminin mövcud problemlərin həlli baxımından səmərəsiz olduğunu qeyd edən Türkiyə Prezidenti bildirib ki, bu sistemin yükünü cəmi bir neçə ölkə öz çiynində daşıyır. Buna görə də bütün dünya ölkələri bu məsuliyyəti bərabər şəkildə bölüşməli, liderlər və beynəlxalq ictimaiyyətin nüfuzlu şəxsləri səylərini birləşdirməlidirlər.

Sonra dünyanın müxtəlif ölkələrində münaqişələrdən, təbii fəlakətlərdən əziyyət çəkən insanların üzləşdikləri çətinliklərdən bəhs edən kompozisiya təqdim olunub və videoçarx nümayiş etdirilib. Qısa fasilədən sonra sammit işini plenar iclasla davam etdirib. İclasın həmsədri, BMT-nin baş katibi Pan Gi Mun sammitin qarşısında duran əsas öhdəlikləri açıqlayıb və müzakirələrin bu öhdəliklərin həyata keçirilməsi, qarşıda duran problemlərin həlli istiqamətində aparılacağını diqqətə çatdırıb. İclasın digər həmsədri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sülhyaratma, qlobal sülhə nail olma və digər məsələlərdə ölkəsinin bundan sonra da eyni əzmlə çalışacağını bildirib.

Almaniya Kansleri Angela Merkel silahlı münaqişələrdə mülki şəxslərin həlak olmasının qarşısının alınması üçün səylərin artırılmasının vacibliyini bildirib, ölkəsinin bundan sonra da humanitar yardımların dəstəklənməsi və müvafiq vəsaitin daha da artırılması istiqamətində fəaliyyətini gücləndirəcəyini vurğulayıb. Küveyt Dövlətinin Əmiri Şeyx Sabah Əl-Əhməd Əl-Cabir Əs-Sabah qeyd edib ki, bu sammit BMT-nin öz məqsədlərinə çatması üçün mühüm vasitədir. Onun sözlərinə görə, yeni meyarların müəyyənləşdirilməsi, bütün dövlətlərin və beynəlxalq təşkilatların humanitar böhranın aradan qaldırılmasına fəal dəstək verməsi xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyev Dünya Humanitar Sammitinin plenar iclasında çıxış edib. Sammitin nəticələrinin bütün dünyada humanitar böhrandan əziyyət çəkən insanların həyat səviyyəsinin yaxşılaşmasına öz töhfəsini verəcəyinə ümidvar olduğunu vurğulayan dövlətimizin başçısı bildirib ki, biz azərbaycanlılar qaçqınlığın və məcburi köçkünlüyün nə demək olduğunu çox yaxşı bilirik: «Artıq 20 ildən çoxdur ki, bir milyondan artıq azərbaycanlı Ermənistanın hərbi təcavüzü və işğalından əziyyət çəkir. Bu təcavüz nəticəsində bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilib. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törədib. 1992-ci ildə Ermənistanın törətdiyi Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən soyqırımı kimi tanınıb. Xocalı soyqırımı nəticəsində 613 mülki şəxs qəddarcasına qətlə yetirilib. Onların arasında 106 qadın, 63 uşaq, 70 yaşlı insan olub. Mindən artıq adam itkin düşüb. Ermənistan Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirir».

Bu ilin aprelində Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan vətəndaşlarına qarşı yeni hücum həyata keçirdiyini diqqətə çatdıran dövlətimizin başçısı nəticədə əsgər və zabitlərimizin, o cümlədən 6 mülki şəxsin qətlə yetirildiyini, 30-dan artıq dinc insanın yaralandığını, kəndlərimizin atəşə tutulması nəticəsində 500-dən artıq evə ziyan dəydiyini, 100-dən çox evin tamamilə dağıdıldığını və yandırıldığını vurğulayıb: «Ermənistan ordusu mülki şəxslərə qarşı qadağan olunmuş kimyəvi silahdan, xüsusilə ağ fosfor bombalarından istifadə edib. Ermənistan tərəfindən törədilən bütün müharibə cinayətləri sənədlərlə sübuta yetirilib və beynəlxalq müşahidəçilərə təqdim olunub. Mülki əhalimizi qorumaq üçün Azərbaycan Ordusu uğurlu əks-hücum həyata keçirdi və yalnız bundan sonra təcavüzkar dayandırıldı».

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə məhəl qoymur: «Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətrafındakı 7 rayonu işğal olunub. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində icra edilir. Bizə gəldikdə isə onlar 20 ildən çoxdur kağız üzərində qalır. Bu, Azərbaycana qarşı ikili standartlar siyasətidir. Ermənistan bu qətnamələrə əməl etməli və ya bu ölkəyə qarşı sanksiya tətbiq olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir».

Bütün region üçün başqa bir təhlükə mənbəyi hesab edilən istismar müddəti başa çatmış Metsamor Atom Elektrik Stansiyası barədə də danışan dövlətimizin başçısı bildirib ki, Ermənistanın radioaktiv tullantılardan qanunsuz istifadə etməsinə dair məlumatlar var: «Sabiq baş nazir, parlament üzvü və digər Ermənistan rəsmiləri bu ilin aprelində Ermənistanın «çirkli bomba» adlandırılan nüvə silahına malik olduğunu bəyan ediblər. Bu bəyanat müvafiq beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə araşdırılmalıdır. Ermənistanın nüvə təhdidi və şantajına son qoyulmalıdır. Azərbaycan səbəbkarı Ermənistan olan humanitar fəlakətin fəsadlarının öhdəsindən gəlmək üçün əlindən gələni edir».

Azərbaycan Prezidenti qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün dövlətin apardığı humanitar siyasətin mühüm nəticələrindən də bəhs edib. Bildirib ki, bu məqsədlə 6 milyard dollardan artıq vəsait sərf olunub. Qaçqın və məcburi köçkünlər arasında yoxsulluq səviyyəsi 75 faizdən 12 faizə endirilib. Ümumilikdə, son 12 ildə ölkədə yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə enib. Azərbaycan oxşar problemlərdən əziyyət çəkən ölkələrə yardım edir və edəcək...

Sonra Ukrayna Prezidenti Petro Poroşenko, Makedoniya Respublikasının Prezidenti George İvanov, Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili çıxış edərək, dünyada humanitar problemlərin həlli istiqamətində bütün fəaliyyətləri dəstəklədiklərini vurğulayıblar.

# Paytaxtımızda beynəlxalq sərgi keçirilib

Prezident İlham Əliyev mayın 20-də Bakı Ekspo Mərkəzində XXII Azərbaycan Beynəlxalq qida sənayesi və X Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri ilə tanış olub. Bildirilib ki, sərgidə 34 ölkədən 313 şirkət təmsil olunur, onların 67 faizi xarici şirkətlərdir.



Prezident İlham Əliyev Azərbaycanın «TUNA» şirkətinin, «Azərsun Holding»in,»Buta Group» şirkətinin stendləri ilə tanış olub. Sərgidə ilk dəfə iştirak edən Belçikanın «Agropromotion» şirkəti Bolqarıstandan Azərbaycana süd məhsulları idxal edir. Sərgidə Türkiyənin «CANSA» şirkətinin, Belarusun «Neman» tütün fabrikinin, İndoneziyanın, Hollandiyanın, Gürcüstanın milli stendləri nümayiş olunub. Prezident İlham Əliyev sərgidə öz imkanlarını təqdim edən yerli şirkətlərdən «Kaspi yıldız Azərtürk», «Bee Hive», «Grow Group Azerbaijan» MMC-nin də stendləri ilə tanış olub. «AZTEXNİKA» şirkəti «John Deer» brendini Azərbaycana idxal edir. «Maschio Gaspardo» şirkətinin məhsulları da sərgidə böyük maraqla qarşılanır. Rusiyanın ən iri kombayn istehsalçısı «Rostselmash» sərgidə öz məhsullarını təqdim edir. Almaniyanın «Horsch» şirkəti sərgidə qarğıdalı, soya, günəbaxan toxumu səpən «Maestro» qoşqusu ilə iştirak edir. Amerikanın «John Deer» şirkəti dünyada ən etibarlı istehsalçılardan hesab edilir. Sərgidə kənd təsərrüfatı sahəsində dünya liderlərindən olan Almaniyanın «Claas» brendinin məhsulları da nümayiş olunur.

Sonra Azərbaycan Prezidenti «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin sərgidə nümayiş etdirilən traktorlarına baxıb. Burada müəssisənin istehsalı olan 10 müxtəlif model traktor, otbiçən və kotanlar nümayiş etdirilir. «Azərtexnika» MMC ölkəmizə Avropa və Türkiyədən kənd təsərrüfatı texnikasını idxal edir. Prezident İlham Əliyev «Şəki-İpək» ASC və «İntertextil» şirkətinin stendlərinə də baxıb. Şəki, Zaqatala və Qaxda istehsal sahələri fəaliyyət göstərən «İntertobacco» müəssisəsi 2006-cı ildə yaradılıb və məhsullarını xarici ölkələrə ixrac edir. «CTS-Aqro» MMC isə əsasən pambıq istehsalı, tədarükü və emalı ilə məşğuldur.

## BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRİ YARDIMLIDA VƏTƏNDAŞLARI QƏBUL EDİB 2

XOŞ MƏRAMDAN SUİ-İSTİFADƏ OLUNMAMALIDIR 3

DÖVRİYYƏNİN GİZLƏDİLMƏSİ CİDDİ QANUN POZUNTUSUDUR 4

BƏZİ SUPERMARKETLƏR HƏM İSTEHLAKÇILARIN, HƏM DƏ SAHİBKARLARIN HÜQUQLARINI POZUR 5

# Vergilər naziri Yardımlıda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.

May ayının 20-də vergilər naziri Fazil Məmmədov Yardımlı şəhərində Yardımlı, Masallı, Lənkəran, Astara və Lerik rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildiriblər.

# Beynəlxalq Valyuta Fondunun nümayəndələri ilə görüş



Dünən Vergilər Nazirliyində Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd Əl Qorçi və onu müşayiət edən nümayəndə heyəti ilə görüş keçirilib. Görüş zamanı BVF ilə mövcud əməkdaşlıq əlaqələrinin vəziyyəti və perspektivlər, vergi siyasəti sahəsində planlar, cari ilin dövlət büdcəsinin gəlirlər hissəsinin icrası və qarşıdakı illərdə müvafiq proqnoz göstəriciləri müzakirə olunub.

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev son dövrlərdə Azərbaycanın vergi sistemində həyata keçirilən struktur və inzibatçılıq sahəsindəki islahatlar barədə qonaqlara ətraflı məlumat verib. Bildirilib ki, ölkə başçısı cənab İlham Əliyev yeni iqtisadi şəraitə keçidlə əlaqədar hökumət qarşısında qeyri-neft sektorunun daha böyük sürətlə inkişaf etdirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması və investisiyaların təşviqini prioritet vəzifələr kimi qarşıya qoyub. Qeyd olunub ki, hökumətin proqnozlarına əsasən, bu ilin sonuna ölkə iqtisadiyyatında artım gözlənilir. Respublikada sahibkarlığın inkişaf etdirilməsi, biznesin stimullaşdırılması məqsədilə vergi sistemində və vergi inzibatçılığında islahatların aparılması prosesi davam etdiriləcək, vergidən yayınma hallarının qarşısının alınması üçün daha səmərəli nəzarət mexanizmlərinin tətbiqi, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsi həyata keçiriləcək. Nazir müavini həyata keçirilən tədbirlərin proqnozların icrasına müsbət təsir edəcəyinə əminliyini bildirib.

Azərbaycan iqtisadiyyatında müşahidə olunan iqtisadi dayanıqlığı qeyd edən missiya rəhbəri Məhəmməd Əl Qorçi hökumətin qeyri-neft gəlirlərinin artırılması və qeyri-neft sektorunun davamlı inkişafı sahəsində görülən işləri müsbət qiymətləndirib və vergi sistemində aparılan islahatların əhəmiyyətini qeyd edib. Bildirilib ki, müşahidə olunan iqtisadi çətinliklər dövründə Azərbaycanın büdcə-vergi siyasətində nümayiş etdirdiyi nəticələr qənaətbəxşdir.

Sonra tərəflər cari ildə vergi qanunvericiliyinə edilmiş dəyişikliklərin büdcə gəlirlərinə təsiri, qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının artırılması istiqamətində görülən işləri, ayrı-ayrı sahələrdən vergi daxilolmalarının vəziyyətini müzakirə ediblər. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Vergilər Nazirliyində struktur və kadr dəyişiklikləri aparılıb

Vergilər Nazirliyi tərəfindən həyata keçirilən davamlı islahatlar nəticəsində vergi daxilolmaları üzrə proqnoz tapşırıqları vaxtında və artıqlaması ilə yerinə yetirilir, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atılır.

Vergi borclarının dövlət büdcəsinə alınması işinin təşkilinin daha da təkmilləşdirilməsi, cinayət xarakterli hüquqpozmaların qarşısının alınması sahələrində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, eləcə də cinayət tərkibi yaratmayan borc materiallarının əvvəlcədən araşdırılması və təhlili nəticəsində vergi cinayətlərinin sayının azalmasına nail olmaq məqsədilə Vergilər Nazirliyinin Vergi cinayətlərinin təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsi yaradılıb. Nazirliyin Hüquq Baş İdarəsinin rəisi vəzifəsində işləyən Zeynalabdin Məmmədzadə yeni baş idarənin rəisi vəzifəsinə keçirilib.

Vergi ödəyicilərinə xidmətin səviyyəsinin yüksəldilməsi, vergi məlumatlandırılması işinin və vergi qanunvericiliyinə əməl olunması səviyyəsinin artırılması, vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi sahəsində aparılan işlərin təkmilləşdirilməsi məqsədilə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin Çağrı Mərkəzi və Xidmət Mərkəzi ləğv edilərək, Vergilər Nazirliyi yanında Çağrı Mərkəzi Departamenti yaradılıb. Vergi ödəyicilərinə xidmət Baş İdarəsi rəisinin müavini vəzifəsində işləyən Məhəmməd Yunusov yeni departamentin rəisi vəzifəsinə keçirilib.

Vergilər Nazirliyinin Vergi borclarının alınması və ərazi vergi orqanları ilə iş üzrə Baş İdarəsinin adı dəyişdirilərək, Ərazi vergi orqanları ilə iş üzrə Baş İdarə adlandırılıb. Adı dəyişdirildikdən sonra da Baş İdarəyə, əvvəlki kimi, Elçin Bəylərov rəhbərlik edəcək.

Vergilər nazirinin digər əmrləri ilə buna qədər nazirliyin Aparatının rəhbəri işləyən Əli Həsənov Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi, İnsan resursları idarəsi rəisinin birinci müavini vəzifəsində işləmiş Ağasəməd Əfəndiyev isə Vergilər Nazirliyi Aparatının rəhbəri təyin olunub.

# Azərbaycan Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinin ELANI

Müsabiqənin məqsədi Azərbaycanın müasir vergi sistemi ilə bağlı məlumatların cəmiyyətə çatdırılmasında vətəndaş və jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

**Müsabiqəyə təqdim olunacaq yazıların mövzu istiqamətləri**

1. Yeni iqtisadi inkişaf modelinin formalaşmasında vergi siyasətinin rolu;
2. Vergi təbliğatı: dövlət tərəfindən müəyyən edilmiş vergiləri ödəmək hər kəsin Konstitusiya borcudur;
3. Dövlət və vergilər: dövlət büdcəsinə ödənilən vergilər nəyə xərclənir?;
4. Vergidən yayınma nə ilə nəticələnə bilər və bu, hansı məsuliyyət yaradır?;
5. Vergi sisteminin və sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflaşdırılması;
6. Vergi ödəyicilərinə xidmətlər biznesin idarə edilməsinin asanlaşdırılması vasitəsi kimi;
7. Elektron vergi xidmətlərinin tətbiqi innovativ islahatların «açarı» kimi;
8. Nağdsız ödənişlərin stimullaşdırılmasının vergi daxilolmalarının artmasına təsiri.

**II. Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması**

I yer - 1000 manat (1 mükafat)
II yer - 800 manat (2 mükafat)
III yer - 500 manat (2 mükafat)
Həvəsləndirici mükafat - 200 manat (5 mükafat)

**III. Müsabiqənin şərtləri**

Müsabiqəyə təqdim olunmuş yazılarda aşağıdakılara üstünlük veriləcək:

1. Materialların mövzunu, konkret olaraq nəzərdə tutulan istiqaməti dolğun əhatəetmə səviyyəsi;
2. Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;
3. İfadə vasitələrinin zənginliyi;
4. Oxucu üçün informasiyalılıq dərəcəsi;
5. Qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisə.

Müsabiqəyə 2016-cı ilin may ayının 25-dən iyul ayının 15-dək müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında gedən yazılar buraxılacaq.

Qaliblərin adları 2016-cı ilin iyul ayında - Milli Mətbuat Günü ərəfəsində açıqlanacaq.

Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur.

Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda «Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinə təqdim olunmaq üçün verilir» qeydi olmalıdır.

Qeyd: Azərbaycan Mətbuat Şurasının «qara siyahı»sında yer alan kütləvi informasiya vasitələrində dərc olunan yazılar müsabiqəyə qəbul edilmir.

**IV. Yazıların qiymətləndirilməsi**

Müsabiqəyə qəbul olunmuş materiallar Vergilər Nazirliyi və Mətbuat Şurasının müəyyən etdiyi xüsusi komissiya tərəfindən qiymətləndiriləcək.

**V. Yazıların təqdim edilməsi**

Müsabiqə üçün yazılar ayrıca zərfdə təqdim olunmalıdır.

Yazıya aşağıdakı materiallar da əlavə edilməlidir:

- yazı təqdim edən şəxsin harada işlədiyini təsdiqləyən sənədin surəti;
- yazı təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev, iş və mobil telefonunun nömrəsi;
- müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi (ayrıca vərəqədə);
- yazı elektron media resursunda verilibsə, bunu təsdiqləyən link (ayrıca vərəqədə);
- materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi;
- diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmamaqla);
- yazı elektron media resursunda verilibsə, diskdə yazının linki göstərilməlidir.

Müsabiqə üçün yazılar may ayının 25-dən iyul ayının 15-dək həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Məmməd Araz küç., 4 ünvanında (əvvəlki Teymur Əliyev küç., 38 - Azərbaycan Mətbuat Şurasının ofisi) və Bakı şəhəri, Ə.Haqverdiyev küç., 60 ünvanında qəbul ediləcək.

Təqdimat prosesində müsabiqə qaydalarının hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə telefonları:**
(+99412) 441 35 30, (050) 534 93 26
(055) 201 99 26, (+99412) 403 87 90,
(050) 254 25 52, (+99412) 403 87 88, (050) 254 02 62

**Məsul əlaqələndiricilər:**
Əvəz Rüstəmov (Mətbuat Şurası),
Rövşən Məmmədov (Vergilər Nazirliyi)
Şahin Məmmədov (Vergilər Nazirliyi)

# Vergi əməletməsinə nəzarəti gücləndirmək məqsədilə...

**Vergilər Nazirliyinin inzibati binasında Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (FATCA) üzrə maliyyə institutlarının nümayəndələri üçün təlim keçirilib**



Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin rəisi Fərid İsayevin sözlərinə görə, bəzən maliyyə institutlarının bəyan etdikləri məlumatlarda uyğunsuzluqlar olur və bu təlimin keçirilməsində məqsəd həmin uyğunsuzluqların aradan qaldırılması istiqamətində onlara yardım etməkdir. Maliyyə institutlarında vergi monitorinqi idarəsinin Maliyyə institutlarında vergi əməletməsinə nəzarət şöbəsinin rəisi Səfərəli Cavadovun bəyan edilən məlumatlardakı uyğunsuzluqlar barədə çıxışından sonra «FATCA: tələblər və qarşıda duran məsələlər» mövzusunda təqdimat nümayiş etdirilib. Sonra «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə Saziş»lə bağlı qısa arayış təqdim olunub. Qeyd olunub ki, maliyyə institutları tərəfindən bəyan edilən məlumatlarda əsas uyğunsuzluqlar e-hesabat formalarında «hesabın nömrəsi və ya ekvivalenti», «hesab sahibi fiziki şəxsin fərdi identifikasiya nömrəsi», «hesab sahibinin ABŞ-dakı VÖEN-i», «hesabın qalığının və ya dəyərinin dollar ekvivalenti» sütunlarına daxil edilməməsi və ya düzgün daxil edilməməsi səbəbindən baş verir.

Sonra nazirliyin əməkdaşları maliyyə institutlarının nümayəndələrini maraqlandıran sualları cavablandırıblar. Müzakirələr zamanı bu sahədə fəaliyyətin daha da optimallaşdırılması məqsədilə işçi qrupun yaradılması təklif edilib.

**AYTƏN**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycanın strateji valyuta ehtiyatları xarici dövlət borcunu **5 dəfə** üstələyir.
- Yanvar-aprel aylarında ölkəmizin ticarət əməliyyatlarının həcmi **5 milyard 43 milyon 992.40 min** ABŞ dolları təşkil edib.
- Fransanın «Alstom» şirkətinin «Azərbaycan Dəmir Yolları» QSC ilə birgə layihəsi əsasında ölkəmizə **50** elektrovoz gətiriləcək.
- Dünya Bankı Trans-Anadolu qaz kəməri (TANAP) layihəsinə **1 mlrd.** ABŞ dolları həcmində vəsait ayırmağı planlaşdırır.
- Azərbaycanın daşınmaz əmlak bazarında qiymətlər ötən ayla müqayisədə manatla **3,59%**, ABŞ dolları ilə isə **0,52%** azalıb.

# Xoş məramdan sui-istifadə olunmamalıdır

*May ayının 18-də Vergilər Nazirliyində ölkənin aparıcı KİV nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib. Tədbirdə vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov, vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev, vergilər nazirinin müşaviri Habil Məmmədov, Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva və nazirliyin digər strukturlarının rəhbərləri iştirak ediblər.*

Vergilər nazirinin müavini Sahib Ələkbərov mətbuat konfransını açaraq bildirib ki, ölkədə yaranmış yeni iqtisadi şəraitə və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişlərinə uyğun olaraq, biznes mühitinin daha da yaxşılaşdırılması üçün həm qanunvericilik səviyyəsində, həm də vergi inzibatçılığında geniş islahatlar həyata keçirilir, ölkədə sahibkarlığın inkişafına yönəldilmiş konkret addımlar atılır. Sahibkarlıq subyektlərində dövlət qurumları tərəfindən aparılan bütün yoxlamalar və nəzarət tədbirləri, vergi yoxlamaları istisna olmaqla, 2 il müddətinə dayandırılıb, sahibkarlığın inkişafına əngəl yaradan halların aradan qaldırılması, dövlət orqanlarının fəaliyyətinin «açıq hökumət» prinsiplərinə uyğunlaşdırılması, şəffaflığın təmin edilməsi istiqamətində tədbirlər həyata keçirilib.

Nazir müavini vergi sistemində aparılan dəyişikliklər barədə məlumat verərək bildirib ki, vergi inzibatçılığının səmərəliliyinin yüksəldilməsi məqsədilə bir sıra struktur dəyişiklikləri aparılıb, bir neçə yeni baş idarə yaradılıb. Qeyd olunub ki, Vergilər Nazirliyi də öz səlahiyyətləri çərçivəsində kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və üç istiqamət (əmək müqavilələrinin bağlanması, aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması) istisna olmaqla, əksər operativ nəzarət tədbirlərini dayandırıb. Ötən ilin dörd ayına nisbətən cari ilin müvafiq dövründə səyyar vergi yoxlamalarının sayı 45,1 faiz, kameral vergi yoxlamaları sayı təxminən 2,5 dəfə, operativ vergi nəzarəti tədbirləri keçirilmiş vergi ödəyicilərinin sayı isə 13 dəfə azaldılıb. İlin əvvəllərində vergi qanunvericiliyinə edilmiş dəyişikliklərlə ölkədə vergi yükü azaldılıb, vergi inzibatçılığının çevikliyi təmin edilib. Bütün bunlar biznes mühitinin səmərəliliyinə, vergi ödəyicilərindən daxil olan şikayətlərin azalmasına, sahibkarların rahat fəaliyyət göstərməsinə, vergi daxilolmaları üzrə proqnoz tapşırıqlarının icrasının təmin edilməsinə öz müsbət təsirini göstərib. 2016-cı ilin yanvar-aprel ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 2 milyard 204 milyon 972,7 min manat vəsait daxil olub, proqnoz tapşırığına 104,8 faiz əməl edilib.

Bununla yanaşı, nəzarət tədbirlərinin sayının azaldılmasından sui-istifadə edərək biznes subyektlərinin uçot-hesabat işlərində qeyri-şəffaflığa, dövriyyənin gizlədilməsinə, fiziki şəxslərin əmək müqaviləsi bağlamadan işlərin yerinə yetirilməsinə cəlb olunmasına, saxta aksizli əmtəələrin satışının təşkili və s. kimi qanun pozuntularına yol verilməsi hallarının hələ də çox olduğunu diqqətə çatdıran Sahib Ələkbərov cari ilin ötən dövrü ərzində keçirilmiş xronometraj müşahidələr nəticəsində, habelə məsafədən məlumatötürmə qurğuları quraşdırılmış bir sıra iri ticarət obyektlərində ticarət dövriyyəsinin dəfələrlə azaldıldığının aşkar edildiyini bildirib. Aparılan xronometraj müşahidələri zamanı məlum olub ki, bəzi iri marketlər dövriyyəni faizlə yox, dəfələrlə gizlədir: «Artıq dövriyyənin 3-4 dəfə gizlədilməsi adi hal alıb. Tanınmış iri marketlərdən biri dövriyyəsini 15,4 dəfə, digəri 19,3 dəfə gizlədib. Hətta dövriyyəsini 35,9 dəfə aşağı göstərən bir market də var».

Qeyd olunub ki, nəzarətin artırılması nəticəsində marketlərin dövlət büdcəsinə ödədikləri vergilərin həcmi artmağa başlayıb. Nazirlik tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində 2015-ci ildə 2014-cü illə müqayisədə onların büdcəyə 2-3 dəfə çox vergi ödəmələri təmin olunub. Vurğulanıb ki, dövriyyəsini aşağı göstərən vergi ödəyicilərinə qarşı qanunvericilikdə nəzərdə tutulmuş inzibati tədbirlər görülür və bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək, daha sərt tədbirlər həyata keçiriləcək.

Son günlər bəzi iri ticarət şəbəkələrinin sahiblərinin hökumətdən əlavə dəyər vergisi (ƏDV) ilə bağlı güzəşt istəməsi məsələsinə toxunan nazir müavini qeyd edib ki, həm yerli, həm də beynəlxalq ekspertlərin mövqeyinə görə, Azərbaycanda ƏDV-nin dərəcəsi ölkədəki iqtisadi reallıqlara, Avropa və MDB ölkələrindəki dərəcələrə tam uyğundur. Sahib Ələkbərov ƏDV-nin ümumi vergi daxilolmalarının təxminən üçdə birini təşkil etdiyini, bu vergiyə münasibətdə güzəştlərin tətbiqinin büdcə gəlirlərinə ciddi təsir göstərə biləcəyini, beynəlxalq təcrübədə bu cür vergi güzəştlərinin, bir qayda olaraq, dövlətin inkişafını xüsusi nəzarətə götürdüyü istehsal, innovativ inkişaf və geniş investisiya qoyuluşu tələb edən sahələrin dəstəklənməsi, eləcə də ayrı-ayrı regionların və iqtisadiyyatın konkret sahələrinin inkişafını təmin etmək məqsədilə tətbiq olunduğunu nəzərə çatdırıb: «Populist çıxışlarla bu məsələdən təzyiq vasitəsi kimi istifadə etməyə cəhd göstərənlər bilməlidirlər ki, vergi güzəştləri kiminsə istəyi, xahişi ilə deyil, dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətə uyğun olaraq, aidiyyəti dövlət qurumlarının ölçülüb-biçilmiş konkret iqtisadi hesablamalarına əsaslanan təhlillər nəticəsində, müəyyən müddətə verilir. Vergi qanunvericiliyində ayrı-ayrı sahələrin inkişafı üçün kifayət qədər güzəştlər var, indiki mərhələdə ticarət şəbəkələrinə ƏDV ilə bağlı vergi güzəştlərinin verilməsi məqbul hesab edilmir».

Əgər güzəşt istəyən bütün sahələr vergidən azad olunarsa, bəs dövlət necə yaşamalı, sosial layihələr necə həyata keçirilməlidir? Təhsil, səhiyyə, büdcədən maliyyələşən dövlət orqanlarında çalışanlar haradan maaş almalıdır? Ordumuzun xərcləri nəyin hesabına maliyyələşdirilməlidir?



## *Vergilər Nazirliyinin istəyi budur ki, hər şey şəffaf olsun, bütün ödəyicilərin mühasibat işləri, uçotu düzgün qurulsun, sənədlərdə dövriyyə tam şəkildə göstərilsin*

**Sonra nazirliyin rəhbər vəzifəli şəxsləri KİV nümayəndələrinin suallarını cavablandırıblar.**

*«Haqqın.az» İnformasiya Agentliyi:*

***- Supermarketlər meyvə-tərəvəzin satışı zamanı tətbiq olunan ƏDV-nin ləğv olunmasını istəyir. Onların bu xahişi nə dərəcədə mümkündür?***

***S.Ələkbərov:*** Məncə, artıq bu məsələyə kifayət qədər aydınlıq gətirilib. Ticarət şəbəkələri satdıqları meyvə-tərəvəzin dövriyyəsi ilə əlaqədar müxtəlif rəqəmlər səsləndirirlər. Onlar əvvəl həmin malların satışda ümumi payının 30%, sonra isə 25% olduğunu bildirdilər. Reallıq budur ki, bu gün Azərbaycanda istehlak olunan meyvə-tərəvəzin böyük əksəriyyəti bazarlarda satılır. Amma heç kimə marketdən meyvə-tərəvəz almaq da qadağan edilə bilməz. Kimsə meyvə-tərəvəzi bazardan yox, marketlərdə xüsusi qablaşdırılmış formada almaq istəyirsə, bir az artıq pul verib ala bilər.

***- Vergilər Nazirliyi turizm sektorunun vergidən azad olunmasına necə yanaşır?***

***S.Ələkbərov:*** Bu gün Azərbaycan böyük turizm ölkəsinə çevrilmək ərəfəsindədir. Dövlət başçısının tapşırıqlarına əsasən, ölkəmizdə turizmin inkişafı üçün lazımi işlər görülür, yaxşı infrastruktur yaradılıb. Bir sıra bölgələrimizdə turistlər üçün gözəl şərait mövcuddur və bunun nəticəsində ölkəmizə gələn turistlərin sayı artır. Biz bunun Novruz bayramı günlərində canlı şahidi olduq, ölkəmizə böyük turist axını müşahidə edildi. Turizmin inkişafı hamımız üçün sevindiricidir. Bu sahəni inkişaf etdirmək üçün hər cür imkanımız var. Sadəcə, bunun üçün ölkəmizdə düzgün menecmentin və marketinqin aparılması vacibdir. Turizmin vergidən azad olunmasına gəlincə, əgər hesab edilsə ki, bu sahə vergidən azad olunsun, burada heç bir problem yoxdur. Amma bu məsələ vergi orqanının səlahiyyətində deyil. Dövlətin sosial-iqtisadi siyasəti bunu tələb edərsə və müvafiq qərar qəbul olunarsa, biz onu icra etməyə hazırıq.

***- Elektron ticarətin vergiyə cəlb edilməsi istiqamətində hansı işlər görülməkdədir?***

***S.Ələkbərov:*** Elektron ticarətin vergiyə cəlb olunması kifayət qədər ciddi məsələdir. Bu sahə üzrə böyük dövriyyə olsa da, statistikada rəsmi dövriyyə çox az göstərilir. Vergilər Nazirliyi e-ticarətlə bağlı müvafiq işlər aparır. Burada tək internet ticarəti deyil, internet oyunları, internet xidmətləri göstərən müxtəlif transmilli şirkətlərin fəaliyyəti və onların tam həcmdə vergiyə cəlb olunması variantları da araşdırılır.

***S.Musayeva:*** Bir müddət əvvəl Vergilər Nazirliyi tərəfindən elektron ticarətin vergiyə cəlb olunması ilə bağlı qanun layihəsi hazırlanmışdı. Layihə aidiyyəti qurumlarla müzakirə olundu, bütövlükdə hökumət tərəfindən müsbət qarşılandı. Sadəcə, bəzi təkliflər üzərində təkmilləşdirmələrə ehtiyac var. Elektron ticarət banklarla birgə iş, nağdsız hesablaşmalar deməkdir. E-ticarət dedikdə, internet üzərindən təkcə məhsulların deyil, həm də xidmətlərin alınması nəzərdə tutulur. Ona görə də bu prosesdə iştirak edən bütün tərəflərlə müzakirələr aparılır. Eyni zamanda, telefonlara mobil tətbiqlərin yüklənməsi, musiqilərin yazılması, internet oyunlarının, elektron birjaların vergiyə cəlb olunması da müzakirə mövzusudur. Bütün bu məsələlər qanun layihəsində öz əksini tapıb.

***- Azərbaycanda kazinoların yenidən fəaliyyətə başlaması ilə bağlı fikirlər səsləndirilməkdədir. Kazinolar açılarsa, təbii ki, bu sahədən vergi də cəlb edilə bilər. Buna münasibətiniz necədir?***



***S.Ələkbərov:*** Bu məsələyə ümumiyyətlə, şərh vermək istəməzdim. Vaxtilə Azərbaycanda fəaliyyətdə olan kazinolar ulu öndər Heydər Əliyevin qərarı ilə ləğv olundu. Şəxsən mən, bir vətəndaş olaraq, kazinoların açılmasını istəməzdim. Qonşu ölkələrdə - Gürcüstanda, Belarusda kazinolar fəaliyyət göstərir və bu sahədən büdcəyə böyük məbləğdə vergi daxil olur. Vergi orqanı mərkəzi icra hakimiyyəti orqanıdır, dövlət vergilərlə bağlı hansı qərarı qəbul edirsə, nazirlik onun icrasını təmin edir.

*«Bizim Yol» qəzeti:*

***- Qeyri-neft sektorundan vergi daxilolmaları üzrə özəl və dövlət sektorunun payı hansı səviyyədədir?***

***İ.Vəliyev:*** Son illər qeyri-neft sektoru üzrə vergi daxilolmalarının həcmində əhəmiyyətli artım qeydə alınmaqdadır. 2016-cı ilin ilk 4 ayı üzrə göstəricilərə əsasən, dövlət büdcəsinə ümumilikdə 2 milyard 205 milyon manata yaxın vəsait toplanıb. Qeyri-neft-qaz sektoru üzrə daxilolmalar 1 milyard 700 milyon manata yaxın olub, bu sahə üzrə özəl sektorda fəaliyyət göstərən vergi ödəyicilərindən 1 milyard 156,8 milyon manat vəsait toplanıb. Dövlət sektoru üzrə daxilolmalar isə 672,2 milyon manatdan artıqdır.

Neft sektoru üzrə daxilolmalara gəlincə, bu sahədən daxil olan vergilər bu il 511 milyon 627,2 min manat olub.

***S.Ələkbərov:*** Qeyri-neft sektorundan daxilolmalar bundan sonrakı illərdə də artacaqdır. 2015-ci ilin göstəricilərinə görə, cəmi daxilolmalarda ƏDV-nin payı 33,1% təşkil edib. Yəni büdcə daxilolmalarının üçdə biri ƏDV-nin payına düşür. Ötən il ƏDV ödəyicilərinin ödədiyi vergilərin məbləği 2 milyard 353 milyon 502 min manat olub. İkinci yerdə mənfəət vergisidir - 31,1%. Fiziki şəxslərin gəlir vergisi isə ümumi daxilolmalarda 13,8% təşkil edir. Sonrakı yerlərdə aksizlər və sadələşdirilmiş vergi dayanır. Onu da qeyd etmək istərdim ki, əksər vergi ödəyiciləri sadələşdirilmiş vergi ödəyiciləridir və güzəştdən danışanda onu da qeyd etmək lazımdır ki, sadələşdirilmiş verginin özü bir güzəştdir. Bu vergi növü çox az ölkələrdə tətbiq olunur. Dövlət vətəndaşa imkan verib ki, Bakıda 4%, bölgələrdə 2% olmaqla, sadələşdirilmiş vergi ödəsin. Bu verginin ümumi daxilolmalarda payı cəmi 2,4 %-dir. Vergi daxilolmalarında 33%-dən artıq paya malik olan ƏDV ödəyicilərinin xüsusi çəkisi ümumi vergi ödəyicilərinin sayının təxminən 3,9%-ni təşkil edir.

Bu gün ölkəmizdə mövcud olan əlverişli biznes mühiti vergi ödəyicilərinin sayının artmasına səbəb olmaqdadır. Ümumi vergi ödəyicilərinin sayı hazırda 700 min nəfəri keçib. Cari ilin 4 ayı ərzində 37 mindən çox vergi ödəyicisi qeydiyyatdan keçib. Ləğv olunanlar, fəaliyyətini dayandıranlar və yenidən bərpa edənlər, yeni qeydiyyata alınan vergi ödəyicilərinin sayını müqayisə etsək, görərik ki, dinamika, əvvəlki dövrlərdə olduğu kimi, müsbətdir.

*«İnterfax» İnformasiya Agentliyi:*

***- GPRS nəzarət aparatlarının quraşdırılması sahəsində vəziyyət necədir? Turizm obyektlərində həmin cihazların tətbiqi mümkündürmü?***

***S.Ələkbərov:*** Vergilər Nazirliyinin istəyi odur ki, hər şey şəffaf olsun, bütün ödəyicilərin mühasibat işləri, uçotu düzgün qurulsun, sənədlərdə dövriyyə tam şəkildə göstərilsin. Bu istiqamətdə GPRS (elektron məsafədənötürmə qurğuları) aparatlarının mühüm əhəmiyyəti var, bu qurğu vasitəsilə istənilən obyektdə aparılan əməliyyatlar avtomatik olaraq vergi orqanlarının məlumat bazasına ötürülür. Mağazalara indiyədək 760-dan çox GPRS cihazı quraşdırılıb. Nazirlər Kabinetinin qərarına uyğun olaraq, bu aparatların digər obyektlərdə də quraşdırılması ilə bağlı iş aparılır. Gələcəkdə vergidən yayınma halları daha çox müşahidə edilən sahələrdə həmin aparatların tətbiqi planlaşdırılır. Bu cihazlar, ilk növbədə, nağd ödənişlər olan yerlərdə quraşdırılmalıdır ki, həmin sahələrdən biri də turizmdir.

***- Marketlərdən vergi daxilolmaları hansı səviyyədədir? Supermarketlərdə xronometraj aparılırmı?***

***S.Ələkbərov:*** Ödənilən vergilərin məbləği kommersiya sirri olduğu üçün açıqlana bilməz. Amma onu qeyd edə bilərik ki, iri ticarət şəbəkələrindən 2015-ci ildə 2014-cü ilə nisbətən bir neçə dəfə artıq vergi daxil olub. Əvvəlki illərin 4 ayı ilə müqayisədə 2016-cı ilin ilk 4 ayının nəticələri daha yüksəkdir. Burada inzibatçılığın təkmilləşdirilməsi, tələblərin artırılması, şəffaflığa keçidin rolu böyükdür. Vaxtilə bəzi obyektlər gömrük orqanlarının qeyri-şəffaf işindən şikayətlənirdi. Artıq bunlar hamısı öz həllini tapıb. Xronometraj müşahidə tədbirləri mütəmadi olaraq aparılır və bundan sonra da aparılacaq. Riskli vergi ödəyiciləri aşkar olunan kimi aidiyyəti orqanlar bunu araşdırıb lazımi tədbirlər görürlər. Ona görə də biz nəzarətimizi daha da gücləndirəcəyik, sərtləşdirəcəyik. Vergi orqanlarının yoxlamaları dayandırmalarından sui-istifadə etmək xülyasına düşənlər yanılırlar. Əgər hər hansı riskli sahə aşkar olunursa, Vergilər Nazirliyi orada yoxlama aparır. Növbədənkənar səyyar vergi yoxlaması, operativ vergi nəzarəti tədbirləri keçirmək qanunvericiliklə vergi orqanına verilmiş hüquqlardır.

*«ANS» TV:*

***- İnvestisiyaların cəlb edilməsi ilə bağlı güzəştlər nəzərdə tutulurmu?***

***S.Musayeva:*** Bu sahədə sahibkarlara dövlət tərəfindən kifayət qədər güzəştlər verilib. Müvafiq qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, investisiya təşviqi sənədi alan fəaliyyət sahələrinə yeni vergi güzəştləri nəzərdə tutulub. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə görə, investisiya təşviqi sənədi əldə edən şəxslərin mənfəətinin 50%-i 7 il müddətinə gəlir və ya mənfəət vergisindən azad olunur. Həmçinin, sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının 7 il müddətinə ƏDV-dən azad edilməsi nəzərdə tutulub. Bundan başqa, hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq əmlaka görə 7 il müddətinə əmlak vergisi, mülkiyyətlərində olan torpaq sahələrinə görə isə 7 il müddətinə torpaq vergisi ödəməkdən azad ediliblər.

***- Müğənnilərin vergiyə cəlb olunması, şadlıq evləri və restoranlarda kameraların quraşdırılması sahəsində vəziyyət necədir?***

***S.Ələkbərov:*** Vergi orqanları müğənnilərə, şou-biznes sahəsində çalışan bütün vergi ödəyicilərinə hörmətlə yanaşır. 6-7 aydır ki, bu sahədə fəaliyyət göstərən vergi ödəyiciləri ilə lazımi maarifləndirmə işləri aparılır. Lakin təbiidir ki, hər şeyin bir limiti var və bu limit artıq tükənir. Əvvəllər bu sahə üzrə vergi inzibatçılığı lazımi səviyyədə deyildi. Ötən ilin sonlarında şadlıq saraylarına, restoranlara qeydiyyat kitabları təqdim olundu, hazırda toy və şənliklərin qeydiyyatı aparılır, bu sahəyə ciddi nəzarət edilir. Onların çoxu sadələşdirilmiş vergi ödəyiciləridir və rübdə bir dəfə bəyannamə verirlər. 2012-ci ildən indiyədək vergi daxilolmalarına baxsaq, təkcə bu ilin 4 ayında şou-biznes nümayəndələrinin büdcəyə ödədiyi verginin məbləği 2015-ci ili çıxmaq şərtilə, son bir neçə il ərzində ödədiklərindən iki dəfə çoxdur. Əslində isə dəfələrlə çox vergi ödəməlidirlər. Son aylar bəzi şou-biznes nümayəndələri deyirlər ki, toy yoxdur. Amma təkcə Bakıda kameralar quraşdırılmış şadlıq saraylarında cari ilin 4 ayı ərzində 6324 toy məclisi qeydə alınıb. Şou-biznes nümayəndələrinin əksəriyyəti getdiyi toyların sayını və aldığı qonorarın məbləğini düzgün göstərmirlər. Bir toyda oxumağa 70-50, hətta 20 manata getdiyini göstərən tanınmış müğənnilər də var. Yaxın vaxtlarda birinci rübün nəticələri əsasında vergidən yayınan müğənnilərin adları nazirliyin saytında yerləşdiriləcək.

Vergilər Nazirliyinin mövqeyi birmənalıdır: dəfələrlə edilən müraciətlərə, aparılan izahlara məhəl qoymayaraq vergidən yayınmaq istəyənlərə qarşı qanunun tələb etdiyi tədbirlər görüləcək. Bu, yalnız şou-biznes sahəsində fəaliyyət göstərənlərə deyil, hamıya aiddir. Bu sahədə ictimai qınaq mühüm rol oynayır, bu baxımdan, nazirlik daim KİV-lə sıx əlaqədə işləyir və hesab edirəm ki, keçirdiyimiz tədbirlərin müsbət nəticəsinin şahidi olacağıq.

*«Yeni Azərbaycan» qəzeti:*

***- 2016-cı ilin yanvar ayından qəzet kağızı ƏDV-yə cəlb olunub. Bu, çap mətbuatının xərclərinə təsir edir. Bu sahədə ƏDV-nin aradan qaldırılması mümkün ola bilərmi?***

***S.Ələkbərov:*** Bu məsələyə parlamentdə baxılmalıdır. Qəzet kağızının əlavə dəyər vergisindən azad olunması barədə qərar verilərsə, biz bunun əleyhinə çıxan deyilik.

*«Azad Azərbaycan» TV:*

***- Bankların vergi daxilolmalarında azalma baş veribmi?***

***İ.Vəliyev:*** Əvvəllər bank sektorundan vergi daxilolmaları ilə bağlı ciddi problem olmurdu, ödəmələr normal şəkildə həyata keçirilirdi. Hazırda müəyyən çətinliklər yarandığından bankların vergi ödənişləri təxminən 30% azalıb.

***Hazırladılar:***
**Elbrus CƏFƏRLİ,**
**Fəxriyyə İKRAMQIZI**



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

## Daşınmaz əmlakın satışından tutulan vergi

***ƏDV ödəyicisi olan hüquqi şəxsin balansında olan daşınmaz əmlak notarial qaydada satılan zaman notarius tərəfindən sadələşdirilmiş vergi tutulurmu?***

Vergi Məcəlləsinin (VM) 150.1.9-cu maddəsinə əsasən, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, Vergi Məcəlləsinin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqdim edilmə, həmçinin Vergi Məcəlləsinin 221.5-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergi hesablanmış tikinti sahələrinin həmin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən təqdim edilməsi halları istisna olmaqla) üzrə müqavilələri təsdiq edən notarius ödəmə mənbəyində vergini tutmağa borcludur.

Vergi Məcəlləsinin 218.4.3-cü maddəsinə uyğun olaraq, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini (fiziki şəxsin azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, həmçinin Vergi Məcəlləsinin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları istisna olmaqla) həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir.

Vergi Məcəlləsinin 219.3-1-ci maddəsinə əsasən, VM-in 218.4.3-cü maddəsində göstərilən şəxslər üçün mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin, o cümlədən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən satın alınmış yaşayış və qeyri-yaşayış sahələri vergitutma obyektidir.

Vergi Məcəlləsinin 220.8-ci maddəsinin müddəalarına görə, VM-in 218.4.3-cü maddəsində göstərilən şəxslər üçün sadələşdirilmiş vergi bu Məcəllənin 219.3-1-ci maddəsində göstərilən vergitutma obyektinin hər kvadratmetri üçün 15 manat olmaqla bu maddə ilə müəyyən edilmiş qaydada hesablanır.

Vergi Məcəlləsinin 220.8-1-ci maddəsində göstərilmişdir ki, VM-in 218.4.3-cü maddəsində göstərilən şəxslər üçün binaların qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bu Məcəllənin 220.8-ci maddəsi ilə hesablanmış məbləğə 1,5 əmsal tətbiq edilməklə hesablanır.

Qeyd olunlara əsasən, Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir. Hüquqi şəxs tərəfindən balansında olan daşınmaz əmlakın təqdim edilməsi zamanı həmin əmlakın təqdim edilməsi üzrə müqaviləni təsdiq edən notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergi hesablanaraq dövlət büdcəsinə ödənilir və bu təqdim etmədən əldə edilən gəlirlər mənfəət vergisi məqsədləri üçün vergi tutulan gəlirlərə aid edilmir.

Eyni zamanda, aparılmış əməliyyat ƏDV-nin vergitutma obyektini təşkil etmədiyindən, həmin daşınmaz əmlaka görə ƏDV ödənilib əvəzləşdirildiyi halda, ödənilmiş və əvəzləşdirilmiş ƏDV-nin məbləği təqdim etmənin baş verdiyi ayın ƏDV bəyannaməsində yenidən hesablanmaqla dövlət büdcəsinə bərpa edilir.

# Yeni iş yerləri uğurlu biznes mühitinin göstəricisidir

### Azərbaycanda son 24 il ərzində heç bir vergi növü üzrə faiz dərəcəsi artırılmayıb, əksinə, azaldılıb

Ölkəmizdə sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələnməsi, qeyri-neft sektorunun, özəl bölmənin, sahibkarlığın inkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılır. Respublikamızda hər gün yeni müəssisələrin, şirkətlərin açılması nəticəsində ümumi vergi ödəyicilərinin sayı artıq 700 mini ötüb. Cari ilin 4 ayı ərzində 37 mindən çox yeni vergi ödəyicisi qeydiyyata alınıb. Bütövlükdə ləğv olunmuş və fəaliyyətini müvəqqəti dayandırmış vergi ödəyicilərinin sayını yeni qeydiyyata alınmış və fəaliyyətini bərpa etmiş vergi ödəyicilərinin sayı ilə müqayisə etdikdə görünür ki, dinamika, əvvəlki dövrlərdə olduğu kimi, yenə də müsbətdir.

Ölkədə vergi inzibatçılığının təkmilləşdirilməsi nəticəsində sahibkarlara böyük güzəştlər verilib, uğurlu biznes üçün hər bir şərait yaradılıb. Vergilər Nazirliyi kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və üç istiqamət (əmək müqavilələrinin bağlanması, aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması) istisna olmaqla, əksər operativ nəzarət tədbirlərini dayandırıb. Cari ilin əvvəllərində vergi qanunvericiliyinə edilmiş dəyişikliklərlə ölkədə vergi yükü azaldılıb, vergi inzibatçılığının çevikliyi təmin edilib.

Məsələyə münasibət bildirən iqtisadçı alim Pərviz Heydərov bizimlə söhbətində bildirdi ki, sahibkarlığın və iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı, dövlət büdcəsi üçün yeni gəlir mənbələrinin aşkarlanması, habelə təşkili məqsədilə vergi siyasətinin fasiləsiz olaraq təkmilləşdirilməsi vacibdir və bu, stimullaşdırıcı tədbirlərdən biri sayılır. Odur ki, ölkəmizdə də hökumət qeyd olunan istiqamətdə daim müvafiq addımlar atır və həyata keçirilən ümumi vergi siyasətinin əsas məqsədinin iqtisadiyyatın inkişafının stimullaşdırılması təşkil etdiyindən, mövcud vergi dərəcələri və onların sayının optimallığı, hesablaşmaların isə getdikcə daha da sadə xarakter daşıması məqsədilə ardıcıl təkmilləşdirmələr tətbiq olunur: «Buna misal olaraq, 2001-ci il yanvarın 1-dən Vergi Məcəlləsinin (VM) qüvvəyə minməsini, həmçinin sonrakı dövrlərdə bu məcəllədə baş verən dəyişiklikləri göstərmək olar. Məsələn, VM-in qüvvəyə minməsi ilə fiziki şəxslərdən gəlir vergisinin dərəcəsinin yuxarı həddi 40-dan 35%-ə endirilib və bu, sonrakı illərdə də davam etdirilib. Azərbaycanda fiziki şəxslərdən gəlir vergisi 1992-1995-ci illər arasında 12-55, 1996-1999-cu illərdə 12-40, 2000-2003-cü illərdə 12-35, 2004-2009-cu illərdə 14-35, 2010-2013-cü illərdə 14-30 olub, son 3 ildə isə 14-25% təşkil edir. Fərdi sahibkarlardan gəlir vergisinin dərəcəsi üzrə bu rəqəm 35-dən 20%-ə, müəssisələrdən mənfəət vergisi üzrə isə 22-dən 20%-ə, əlavə dəyər vergisində 28-dən 18%-ə enməsi ilə müşahidə olunub. Qısa desək, Azərbaycanda son 24 il ərzində bütün vergi növləri üzrə faiz dərəcəsi nəinki artırılmayıb, əksinə, azaldılıb. Müqayisə üçün qeyd edək ki, inkişaf etmiş dövlətlərdə - ABŞ-da, Avropanın nəhəng iqtisadiyyata malik ölkələrində sözügedən vergi dərəcələri bizdəkindən xeyli yüksəkdir. Belə ki, birbaşa vergilərin üstünlük təşkil etdiyi həmin ölkələrdə, məsələn, fiziki şəxslərdən gəlir vergisi 40-50% arasında, ƏDV dərəcəsi orta hesabla 20%, mənfəət vergisi isə 30% təşkil edir».

P.Heydərov onu da qeyd etdi ki, iqtisadiyyatın stimullaşdırılmasına xidmət edən güzəştlər kor-koranə şəkildə və necə gəldi həyata keçirilməli deyil. Dəyişikliklər ciddi əsaslandırılmalıdır ki, dövlət büdcəsi gəlirlərinin təminatında heç bir problem yaranmasın. Bu mənada, vergilərin yumşaldılması iqtisadiyyatın bəzi sektorlarında tətbiq olunan güzəştlərlə qətiyyən eyniləşdirilməli deyil: «Fikrimcə, Azərbaycanda vergi dərəcələrinin yumşaldılması gələcəkdə vergi güzəştlərinin tamamilə aradan qaldırılması ilə nəticələnməlidir».

Bütün bu görülən tədbirlərin, optimal vergi mühitinin, sağlam rəqabətin yaradılmasının nəticəsidir ki, mətbuatdan hər gün şəhərimizin müxtəlif yerlərində yeni ticarət məkanlarının, supermarketlərin açılması xəbərlərini alırıq. Məsələn, bu günlərdə Nizami rayonu, Q.Qarayev prospektində «Bakumart» supermarketlər şəbəkəsinin yeni satış mağazasının istifadəyə verilməsi bir daha supermarketlərin fəaliyyəti üçün əlverişli iqtisadi mühitin yaradılmasını göstərir. Mayın 6-da isə «Bazarstore» supermarketlər şəbəkəsinin Masazır qəsəbəsindəki duz gölü kənarında növbəti mağazası açılıb. Bundan öncə şəbəkənin daha bir şöbəsi Yeni Yasamalda fəaliyyətə başlamışdı. Ötən ay Bakıda «Araz» supermarketlər şəbəkəsinin «Xətai» metrosunun yaxınlığında yeni mağazası istifadəyə verilib. Şəbəkənin marketinq departamentinin rəhbəri Anar Bünyadov mətbuata bildirib ki, il ərzində daha 5 mağazanın açılması planlaşdırılır. Aprel ayında paytaxtda daha bir adda - «Bravo» supermarketlər şəbəkəsinin ilk şöbəsi fəaliyyətə başlayıb. Mağaza ötən ay istifadəyə verilən «Gənclik Mall» ticarət mərkəzində müştərilərə xidmət göstərir.

...Və nəhayət, bu günlərdə Bakıda öz miqyası və konseptinə görə, sözün əsl mənasında, möhtəşəm sayıla biləcək «Collezione İtalia» ekspozisiya məkanının açılışı baş tutub. 25000 kvadratmetr ərazidə yerləşən bu kompleksdə Avropanın əfsanəvi mebel brendlərindən ibarət zəngin kolleksiya və dünyanın məşhur dizaynerlərinin interyer həlləri təqdim olunur. Burada ilk dəfə «lüks» sinfinə mənsub 300-dən çox mebel fabriki eyni vaxtda, bir məkanda təmsil olunur.

Sadalaya biləcəyimiz çoxlu sayda faktlardan yalnız bir neçəsini qeyd etməklə Azərbaycanda müasir tələblərə uyğun biznes və vergi mühitinin, eləcə də sahibkarlar arasında şəffaf rəqabət şəraitinin yaradıldığını əyani şəkildə diqqətə çatdırmaq istədik. Əlahəzrət fakt populist çıxışların əksinə olaraq, bəzi ticarət obyektlərinin bağlanılması ilə yanaşı, yeni müəssisələrin açıldığını, müasir ticarət şəbəkələrinin fəaliyyətə başladığını da əminliklə söyləməyə əsas verir.

**Fəxriyyə İKRAMQIZI**

# Dövriyyənin gizlədilməsi ciddi qanun pozuntusudur

Son dövrlərin statistik rəqəmlərinə əsasən demək olar ki, bir çox sahələrdə, o cümlədən ticarət sektorunda fəaliyyət göstərən vergi ödəyiciləri vergi nəzarəti tədbirlərinin əsasən dayandırılmasından istifadə edərək öz dövriyyələrini azaldır və bu yolla vergidən yayınmağa çalışırlar. İri ticarət şəbəkələrində aparılmış xronometraj yolu ilə müşahidələr nəticəsində vergi ödəyicilərinin təqdim etdiyi bəyannamələrdə dövriyyənin cari ilin aprel ayında dəfələrlə azaldıldığı aşkar edilib.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti baş idarəsinin şöbə rəisi Elşən Hüseynovun sözlərinə görə, dövriyyənin gizlədilməsi hallarının qarşısını almaq məqsədilə mütəmadi qaydada xronometraj metodu ilə müşahidələr aparılır. Bu müşahidələr istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi məqsədilə keçirilən operativ vergi nəzarəti növüdür. Müşahidələr zamanı satılmış malların, göstərilmiş xidmətlərin müqabilində çekin vurulması (və ya qəbzin yazılması), müştəriyə verilməsi, çeklərdəki məbləğin ödənilmiş məbləğə uyğun olmasına nəzarət edilir ki, bu da vergidən yayınma hallarının qarşısını almağa xidmət edir və sahibkarlıq subyektinin normal fəaliyyətinə heç bir maneə yaratmır.

Belə ki, 2016-cı ildə ərzaq məhsullarının pərakəndə satışı ilə məşğul olan vergi ödəyicilərinin fəaliyyəti təhlil edilərək, vergidən yayınma riski daha böyük olan vergi ödəyiciləri müəyyənləşdirilmiş və onlardan 11-də xronometraj metodu ilə müşahidə aparılmışdır. Xronometraj metodu ilə müşahidədən əvvəl bu ödəyicilər vergi orqanına təqdim etdikləri bəyannamələrdə orta aylıq satış dövriyyələrini ümumilikdə 11.589,0 min manat həcmində bəyan etdikləri halda, müşahidə ilə onların orta aylıq real satış dövriyyəsinin 29.958,0 min manat olduğu müəyyən edilmişdir. Nəticədə bu ödəyicilərin orta aylıq real dövriyyələri onların bəyannamə göstəricilərindən 18.369,0 min manat və ya 2,6 dəfə artıq olmuşdur. Həmin 11 ödəyicinin 1 ay ərzində təkcə ƏDV üzrə büdcədən yayındırdığı verginin məbləği 2.802,1 min manat təşkil etmişdir.

Bəs vergidən yayınmağa çalışanlara qarşı hansı cəza tədbirləri görülür? E.Hüseynov bildirmişdir ki, vergilərə və digər icbari ödənişlərə dair qanunvericiliyə əməl edilməsi vəziyyətinin düzgünlüyünün yoxlanılması məqsədilə Vergi Məcəlləsinin 38-ci maddəsinə əsasən vergi ödəyicisində səyyar vergi yoxlaması keçirilə bilər. Keçirilmiş yoxlama nəticəsində vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulması halları aşkar edildikdə Vergi Məcəlləsinin 58-ci maddəsinə əsasən vergilərin azaldılmasına və digər hüquq pozuntularına görə maliyyə sanksiyaları nəzərdə tutulmuşdur. Belə ki, Məcəllənin 58.1-ci maddəsinə əsasən, verginin (o cümlədən ödəmə mənbəyində verginin) hesabatda göstərilən məbləği verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. Həmçinin ƏDV üzrə qeydiyyat məcburi olduğu halda, ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərilməsinə, eləcə də ƏDV məqsədləri üçün qeydiyyat qüvvəyə minmədən və ya qeydiyyat ləğv edildiyi halda ƏDV üzrə elektron vergi hesab-fakturalarının təqdim edilməsinə, ƏDV ödəyiciləri tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən gec ƏDV məbləğinin ödənilməsinə görə müxtəlif maliyyə sanksiyalarının tətbiqi də Vergi Məcəlləsinin 58-ci maddəsi ilə tənzimlənir.

Bundan başqa, Məcəllənin 58.8-ci maddəsində xammalın, materialların, yarımfabrikatların, hazır məhsulların və digər sərvətlərin, habelə pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə vergi ödəyicisinə maliyyə sanksiyasının tətbiqi nəzərdə tutulmuşdur. Belə ki, qeyd olunan hallar aşkar edildikdə, gizlədilmiş və ya uçota alınmamış sərvətlərin və ya vəsaitin ümumi məbləğinin 1000 manatdan çox olan hissəsinə 5 faiz miqdarında, il ərzində belə hallara təkrar yol verildikdə isə 10 faiz miqdarda maliyyə sanksiyası tətbiq edilir.



Qeyd olunanlarla bağlı olaraq 2016-cı ilin əvvəllərində Vergilər Nazirliyi ticarət və istehsal sahələrində fəaliyyət göstərən vergi ödəyiciləri ilə həm Bakıda, həm də bölgələrdə görüşlər keçirərək, onları fəaliyyətlərini vergi qanunvericiliyinin tələbləri əsasında qurmağa çağırmışlar. Görüşlər zamanı malların alışının düzgün rəsmiləşdirilməsinin, nağd əməliyyatların nəzarə-kassa aparatı tətbiq edilməklə aparılmasının, satışdan əldə olunan gəlirlərin bəyannamələrdə düzgün əks etdirilməsinin, yaranan vergilərin vaxtında və tam həcmdə dövlət büdcəsinə ödənilməsinin vacibliyi və digər məsələlər xüsusilə vurğulanmışdır. Eyni zamanda ödəyicilər xəbərdar edilmişdir ki, vergi qanunvericiliyinin tələbləri pozulduğu təqdirdə, həmin şəxslərdə Vergi Məcəlləsində nəzərdə tutulmuş nəzarət tədbirləri aparılmaqla, barələrində məsuliyyət tədbirləri görüləcəkdir.

Qanunvericiliyə əməl edilməsi vəziyyətinin düzgünlüyünün yoxlanılması məqsədilə 2016-cı ilin 4 ayı ərzində ərzaq məhsullarının pərakəndə satışı ilə məşğul olan 6 vergi ödəyicisində səyyar vergi yoxlaması aparılmış və yoxlamalar zamanı ümumilikdə 886,2 min manat məbləğində vergilərin azaldıldığı müəyyən edilərək, cəmi 2.515,7 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, 2016-cı ilin 4 ayı ərzində həmin 6 ödəyici üzrə (səyyar vergi yoxlamalarının nəticəsi nəzərə alınmadan) dövlət büdcəsinə ümumilikdə 576,0 min manat vergi hesablanmış, səyyar vergi yoxlamaları ilə hesablanmış vəsait isə vergi ödəyicilərinin özlərinin hesabladıqları məbləğdən 4,4 dəfə çox olmuşdur.

Məlum olduğu kimi ƏDV ödəyiciləri hər ayın 20-nə kimi ötən ayın nəticələri üzrə vergi orqanına bəyannamə təqdim etməlidirlər. Əgər həmin bəyannamələrdə dövriyyənin düzgün göstərilmədiyi aşkar olunarsa, belə vergi ödəyicilərinə müvafiq təsdiqedici sənədləri təqdim etmək və bəyannamələrindəki göstəriciləri dəqiqləşdirmək təklif olunur. Buna əməl olunmazsa vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan sənədlər və mənbəyi məlum olan məlumatlar əsasında vergi ödəyicisinə kameral qaydada vergi hesablanır.

Qeyd etmək lazımdır ki, son vaxtlar ərzaq məhsullarının pərakəndə satışı ilə məşğul olan vergi ödəyicilərində vergidən yayınma halları artmışdır. Belə ki, ərzaq məhsullarının pərakəndə satışı ilə məşğul olan 39 vergi ödəyicisi tərəfindən cari ilin aprel ayı üçün vergi orqanına təqdim olunmuş ƏDV bəyannamələri araşdırılarkən, onların 29-da kənarlaşma aşkar edilmişdir. Həmin 29 ödəyici tərəfindən ƏDV bəyannamələrində ümumilikdə 22.872,7 min manat satış dövriyyəsi göstərilmişdir. Lakin onların faktiki orta aylıq satış dövriyyəsi 41.591,7 min manat təşkil etmiş, bu ödəyicilər tərəfindən ay ərzində 18.719,0 min manat dövriyyə vergidən yayındırılmışdır. Qeyd edilən 29 ödəyicinin təkcə aprel ayı ərzində ƏDV üzrə büdcədən yayındırdığı verginin məbləği 2.855,4 min manat olmuşdur.

Buna görə də vergi ödəyiciləri vergilərlə bağlı öhdəliklərinin məsuliyyətini dərindən dərk etməlidirlər. Vergi qanunvericiliyinin pozulması vergi borcunun yaranmasına gətirib çıxarır və nəticədə yaranmış vergi borclarını vaxtında ödəməyən vergi ödəyiciləri qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, xeyli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmış şəxslər 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə min manatdan iki min manatadək cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Bu əməl mütəşəkkil dəstə tərəfindən törədildikdə və ya onlar külli miqdarda (50.000 manatdan yuxarı məbləğ) vergini büdcədən yayındırdıqda isə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Bundan başqa, yaranmış vergi borclarına görə vergi ödəyicisinin əmlakına (vəsaitlərinə) həbs qoyula, vergi borcu olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərlərinin ölkədən çıxmaq hüququ məhdudlaşdırıla bilər.

Hazırda Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində topdan və pərakəndə ticarətlə məşğul olan 91 vergi ödəyicisi ilə bağlı açılmış cinayət işinin ibtidai istintaqı aparılır. İstintaq prosesində dövlət büdcəsinə olan borc ödənilərsə, belə vergi ödəyicilərinə qarşı qaldırılmış istintaq işlərinə xitam veriləcək, əks halda isə istintaq yekunlaşdıqdan sonra materiallar qanunamüvafiq qaydada aidiyyəti üzrə hüquq mühafizə orqanlarına göndəriləcək.

**Rəşad SADIQOV**

# Bəzi supermarketlər həm istehlakçıların, həm də sahibkarların hüquqlarını pozur

***İri ticarət obyekləri alıcıya kassa çeki əvəzinə daha çox «müştəri qəbzi» təqdim etməyə meyl edirlər. Bu isə dövriyyənin gizlədilməsi və vergidən yayınmanın ən geniş yayılmış formalarından biridir***



*Son dövrlər supermarketlərdə istehlakçıların hüquqlarının pozulması halları ilə əlaqədar müxtəlif fikirlər səslənməkdədir. Vətəndaşlar süni qiymət artımı, məhsulun keyfiyyətinin aşağı olması və digər problemlərlə rastlaşdıqlarını bildirirlər. Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov «Vergilər» qəzetinə verdiyi müsahibədə bu məsələlərə aydınlıq gətirib.*

***- Eyyub müəllim, Azad İstehlakçılar Birliyi istehlak bazarında mütəmadi olaraq monitorinqlər aparır. İstehlakçıların ən çox üz tutduqları yerlərdən biri olan supermarketlərdə vəziyyət barədə nə demək olar?***

- Azad İstehlakçılar Birliyinə vətəndaşlardan vaxtaşırı olaraq ticarət, xidmət, istehsal və digər sahələrlə bağlı müraciət və şikayətlər daxil olur. Onların böyük bir qismi supermarketlərdə yol verilən qanun pozuntuları ilə bağlıdır. Eyni zamanda, sahibkarlardan da bizə iri ticarət şəbəkələrinin onların hüquqlarını pozması halları barədə şikayətlər daxil olur. İctimai təşkilat olaraq bizim qurumun əməkdaşlarının apardığı araşdırmaların nəticələri onu göstərir ki, həqiqətən də qeyd olunan obyektlərdə qanun pozuntusu faktları mövcuddur. Bir çox ölkələrdə iri ticarət şəbəkələri yeni texnologiyalardan geniş istifadəyə yer verdiyi və istehlakçılara müasir satış mədəniyyəti formalaşdırdığı halda, bizim ölkədə əks proseslər baş verir, marketlər daha çox qanun pozuntularına yol verirlər. Supermarketlərdə ən çox istehlakçı hüququnun pozulması halı alıcıya verilən qəbzlərdə göstərilən malların qiymətlərinin vitrində yazılmış qiymətlərlə tam fərqli olmasındadır. Kassadan çıxarılan qəbzlərdəki qiymətlər malın satış qiymətlərindən yüksək olur.Vətəndaş piştaxtada malın üzərindəki qiymətə baxaraq aldanıb onu seçir, pul ödəyəndə isə malın baha satıldığının şahidi olur. Yəni, bu açıq-aşkar istehlakçının aldadılmasıdır. Bir neçə mal növü üzrə hesablandıqda alıcıdan faktiki olaraq xeyli miqdarda artıq pul alınır. Hətta daha yüksək məbləğdə alış-veriş edən, təxminən 250 manatlıq bazarlıq edən vətəndaşlara 50 manat artıq pul hesablanması faktları da var. Maraqlısı odur ki, alıcı kağızdakı qiymət fərqini görüb narazılıq edəndə onu bir yolla sakitləşdirirlər ki, səhv olub, yadımızdan çıxıb və s. Sual olunur, niyə heç olmasa bir dəfə qiymətlər malın üzərindəkindən aşağı hesablanmır? Bundan başqa, qiymətlərin şişirdilməsi halları da mövcuddur. Artıq ənənəyə çevrilmiş bu məsələ neçə vaxtdır ki, ictimaiyyət tərəfindən böyük narazılıqlarla qarşılanmaqdadır və istehlakçı hüquqlarının qorunması üzrə aidiyyəti qurumlara bununla əlaqədar dəfələrlə olunan müraciətlərə baxmayaraq problem hələ də qalmaqdadır.

Supermarketlərdə təsadüf olunan digər problemlərdən biri siqaret məhsullarının satış vitrinlərində ön sırada yerləşdirilməsidir. Dünyanın heç bir ölkəsində siqaretlər istehlakçıya bu qədər yaxın, ilk cərgədə təqdim olunmur. Avropa və qonşu Rusiyada həmin məhsulların anti-reklamının aparıldığı və ictimaiyyətə zərərləri haqqında geniş təbliğat xarakterli məlumatlar verildiyi halda bizim marketlərdə bunun tam əksi müşahidə edilir. Siqaretlər reklam olunurmuş kimi əsas istehlak məhsullarından qabaqda yerləşdirilir və vətəndaşın gözünə sataşan ilk stendlər siqaretlərdən ibarət olur. Burada ticarət şəbəkələrinin maraqları, qazanc əldə etmək iştəhaları vətəndaşın mənafeyindən öndə durur. Nəyə görə? Çünki marketlər siqaretləri ön stendlərdə yerləşdirməklə həmin məhsulların istehsalçıları və idxalçılarından əlavə haqq alırlar. Bu vəsaitlər isə dövriyyədə öz əksini tapmır.

Bizə daxil olan şikayətlərdə ən çox təsadüf olunan məqamlardan biri də marketlərdə satılan malların keyfiyyətinin aşağı olmasıdır. Müşahidələr də göstərir ki, marketlərin anbarları sanitar normalara cavab vermir. Bir çox supermarketlərin soyuducuları işləmir, malların saxlanma şəraiti tələblərə cavab vermir, bu isə məhsulların keyfiyyətinə mənfi təsir göstərir. Hətta bəzi mallar yararsız hala düşür, amma satışa çıxarılır. Bəzi hallarda məhsulların mənşə sertifikatı olmur və onun keyfiyyəti, istehlak üçün yararlı olması şübhə doğurur. Bizim əldə etdiyimiz konkret faktlara əsaslanaraq deyə bilərəm ki, təxminən 700 adda mal marketlərdə uyğunluq sertifikatı olmadan satılır.

***- Supermarketlərdə istehlakçılarla bərabər, sahibkarların hüquqlarının pozulması hallarının baş verdiyini qeyd etdiniz. Sahibkarların hüquqlarının pozulması faktları dedikdə nəyi nəzərdə tutursunuz?***

- İstehsalçı şirkət, yəni sahibkar hansısa iri supermarketdə öz mallarının satılması üçün həmin ticarət şəbəkəsinin sahibinə xahiş-minnət etməlidir, ondan sonra sahibkara orada yer verilir. Yəni, hər bir sahibkar bu ticarət şəbəkələrindən sanki icarə əsasında yer götürür. Təbii ki, bunun üçün müəyyən ödənişlər edilir. Bu sahədə ən çox problemlərlə üzləşənlər çörəkbişirmə müəssisələrinin sahibləridir. Onlar çörək vitrinlərini demək olar ki, marketlərdə icarəyə götürürlər və bunun müqabilində onlardan böyük məbləğdə pul alınır. Əldə etdiyimiz məlumatlara görə, təkcə piştaxtanın alınması üçün ən azı 1000 manat tələb olunur. Ondan sonra hər ay satılmış çörəyin dövriyyəsinə uyğun olaraq əlavə pul alınır. Əvəzində heç bir sənəd, kassa çeki verilmir. Hətta orada çörək satışı ilə məşğul olan şəxs istehsalçı şirkətə aid olduğundan onun aylıq maaşını da sahibkar özü verir. Halbuki onun maaşını supermarket verməlidir.

Bundan başqa, supermarketlərdə stend və piştaxtalarda malların öndə və yaxud arxa cərgədə, yuxarı və aşağıda yerləşdirilməsinə uyğun olaraq «ödəniş əmsalları» müəyyən edilib. Sahibkar istehsal etdiyi malın daha çox satılmasını istəyirsə, marketdə gözəgəlimli yerdə, reklam olunan cərgədən yer almalıdır və buna görə, hər ay müəyyən faiz ödəməlidir. Məsələn, bal satan sahibkar marketdə kiçik bir piştaxta almaq üçün ayrı məbləğ, stendin hansı sırada yerləşdirilməsindən asılı olaraq ayrı məbləğ ödəyir.

Böyük supermarketlərdə satışa təqdim edilən təxminən 20 minə qədər mal adı var. Onların böyük əksəriyyətinin satışı üçün piştaxta yeri və digər şərtləri nəzərə aldıqda supermarket sahiblərinin hər ay böyük məbləğdə əlavə gəlir mənbəyinin olmasını görmək olar. Bu isə vergidən yayınmanın bir yolu deməkdir.

Supermarketlər alınan malların dəyərinə uyğun xal toplanması, hədiyyələrin verilməsi və digər kampaniyalar keçirir və bu zaman da istehlakçıların hüquqlarını pozur. Onlara verilən hədiyyələr çox keyfiyyətsiz və qiymətləri real bazar qiymətlərindən 3-4 dəfə baha müəyyən olunmaqla təqdim edilir. Kampaniyalar keçirilərkən şirnikləndirici vədlər yerinə yetirilmir, bəzən uduşlar verilmir. Bütün bu hallar market şəbəkələrinin ticarətə gətirdikləri qeyri-qanuni hərəkətlərdir və bu halların qarşısı alınmadığına görə, onlar digər «oyunlar da icad etməyə» çalışırlar.

***- Qiymətlərin şişirdilməsi hallarının mövcud olduğunu bildirdiniz. Supermarketlər təxminən qiymətləri nə qədər şişirdirlər?***

- Qiymətlərin şişirdilməsi halları marketlərin fəaliyyətində əsas yerlərdən birini tutur. Ümumi hesabladıqda, yəni istehsalçıdan istehlakçıya qədər olan proses nəticəsində, eləcə də dövriyyədən və vergidən gizlədilməklə, eləcə də keyfiyyətin aşağı salınması da nəzərə alınmaqla qiymətlərin şişirdilməsi təxminən, 20 faiz təşkil edir. 2011-ci ilin yanvar ayında Prezident İlham Əliyev Nazirlər Kabinetinin keçirilən iclasında çıxışı zamanı ölkədə şişirdilmiş qiymətlərlə bağlı ciddi mübarizə tədbirlərinin aparılması barədə müvafiq dövlət orqanlarına tapşırıqlar verdi. Çox təəssüf ki, dövlət başçısının bu tapşırığı bəzi qurumlar tərəfindən lazımi səviyyədə yerinə yetirilmədiyindən ticarət şəbəkələri qiymətləri vaxtaşırı olaraq şişirdirlər. Bununla bağlı dəfələrlə müvafiq dövlət orqanlarına müraciət etmişik, marketlərdə malların satılma qaydalarının pozulmasına qarşı tədbirlərin görülməsini xahiş etmişik. Eyni zamanda,Vergilər Nazirliyindən bu ticarət şəbəkələrinin gizlətdikləri pulları ortaya çıxarıb dövlətə ödənilməsinin təmin olunmasını xahiş edirik.

***- Marketlərin vergidən yayınması barədə Sizin quruma şikayətlər daxil olurmu?***

- Bu barədə bizə olunan müraciətlər əsasən kassa çekinin verilməməsi halları ilə bağlıdır. Bir çox marketlər alıcıya faktiki olaraq kassa çeki vermir. Onların təqdim etdiyi qəbzlər satış dövriyyəsini göstərmək üçün kassa çeki hesab edilə bilməz. Çünki alıcıya alınan malların siyahısı və qiymətlərinin əks edildiyi «müştəri qəbzi» vergi uçotu sənədi deyil və bu fakt vergidən yayınmanın bir formasıdır. Supermarketlərin vergidən yayınmasına qarşı Vergilər Nazirliyi daim tədbirlər görsə də, belə hallara yenə də rast gəlinməkdədir. Ticarət şəbəkələrinin real dövriyyələrini gizlətmələri barədə müxtəlif fikirlər var. Onların qeyri-qanuni yığımları elə vergidən yayınmanın bir növüdür. Məsələ ondadır ki, qiymətlərin şişirdilməsi, kassalarda alıcıların həqiqətdə aldığı məhsulların qiymətindən daha çox faktura çıxarılması və digər hallar üzrə əldə olunan gəlirlər son nəticədə istehlakçının cibindən çıxır. Bu cür qanunsuzluqlar sayəsində yaxşı gəlir əldə edən ticarət şəbəkələri bu azmış kimi dövlət büdcəsinə ödənilən vergiləri də gizlətməklə məşğul olurlar. Hesab edirəm ki, həmin gizlədilən vəsaitlər də dövriyyəyə cəlb olunmalı və vergi tutulmalıdır.

***- Supermarketlərin ƏDV-nin ləğvi barədə müraciətlərinə necə baxırsınız?***

- Onların ƏDV güzəşti istəməsinin heç bir iqtisadi əsası yoxdur. Azərbaycanda sahibkarlar üçün yaradılan əlverişli şərait marketlərin normal qazanmasına imkan verir və onların kifayət qədər gəlirləri var, vergini vermək supermarketlərin qazancına böyük təsir göstərmir. Marketlər gizlətdikləri pulun ondan birini göstərsələr və ortaya çıxarsalar daha çox ƏDV ödəyə bilərlər.

**Elbrus CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanın «Elektron hökumət» modeli Moskvada keçirilən «Svyaz-2016» sərgisində təqdim olunub.

Hesablama Palatasının iş planında nəzərdə tutulmuş nəzarət tədbirləri ilə bağlı audit proqramları təsdiqlənib.

Finlandiya ilə Azərbaycan arasında yeni işgüzar əlaqələrin yaradılması perspektivləri müzakirə edilib.

Çindən gələn yüklərin digər ölkələrə paylanması üçün Azərbaycanda iri logistik mərkəz yaradılacaq.

Dünya Bankı Qrupu Azərbaycanda aqrosığortanın inkişafına dəstək göstərmək niyyətində olduğunu bildirib.

Rusiyanın «Travel.ru» saytının məlumatına əsasən, Azərbaycanın paytaxtı Bakı rusiyalı turistlərin yayda istirahət üçün ən çox səyahət etdikləri 5 şəhər siyahısına daxil olub.

# Avropa İttifaqı Azərbaycanın ən böyük iqtisadi tərəfdaşıdır

Ötən həftə ADA Universitetində İqtisadiyyat Nazirliyinin, ADA Universitetinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), «East Invest» təşkilatının və Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK) birgə təşkilatçılığı ilə II Azərbaycan-Avropa İttifaqı biznes forumu keçirilmişdir. Forumda rəsmi şəxslərlə yanaşı, Avropa İttifaqı (Aİ) ölkələrindən və Azərbaycandan qida, kənd təsərrüfatı, nəqliyyat, logistika, turizm, konsaltinq və sənayenin müxtəlif sahələrində fəaliyyət göstərən 300-dən çox iş adamı, o həmçinin Avropa İttifaqı ölkələrindən 70-dən biznes nümayəndəsi iştirak etmişdir.

AHK-nın icraçı direktoru Florian Şröderin moderatorluğu ilə keçirilən forumda ADA Universitetinin rektoru Hafiz Paşayev çıxış edərək, belə tədbirlərin biznes dairələri arasında əlaqələrin genişləndirilməsi, ölkə iqtisadiyyatının tanıdılması baxımından əhəmiyyətli olduğunu bildirmişdir. Azərbaycan və Aİ ölkələri arasında əlaqələrin iqtisadiyyatın müxtəlif sahələri ilə yanaşı, təhsil sahəsini də əhatə etdiyini qeyd edən H.Paşayev ADA Universitetinin Avropa İttifaqının təhsil müəssisələri ilə uğurla əməkdaşlıq etdiyini demişdir.

İqtisadiyyat naziri Şahin Mustafayev Aİ ilə davamlı və səmərəli münasibətlərin qurulmasının və inkişafının Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən olduğunu vurğulayaraq bildirmişdir ki, bu münasibətlərin əsası 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə qoyulmuşdur: «2009-cu ildə Azərbaycanın qoşulduğu Şərq Tərəfdaşlığı Təşəbbüsü, viza və readmissiya haqqında sazişlərin imzalanması, həmçinin enerji sahəsində əməkdaşlıq Aİ ilə əlaqələrin daha da genişlənməsinə zəmin yaratmışdır. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır və ötən il aramızdakı ticarət dövriyyəsinin həcmi ümumi ticarətdə 47%, 2016-cı ilin ilk rübündə isə 43% olmuşdur. Son 10 ildə Aİ ölkələrinin Azərbaycanda əsas kapitala yönəldilmiş və qeyri-neft sektoruna qoyulmuş birbaşa investisiyaların ümumi xarici investisiyalarda xüsusi çəkisi, müvafiq olaraq, 45,6% və 35% təşkil etmişdir. Aİ-nin 23 üzv ölkəsi ilə Azərbaycan arasında ikiqat vergitutmanın aradan qaldırılması, 18 ölkəsi ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalanmış, 14 üzv ölkə ilə hökumətlərarası komissiya, 2 ölkə ilə işçi qrup yaradılmışdır. 2012-ci ildən indiyədək Aİ ölkələri ilə 100-ə yaxın biznes forumu və müxtəlif tədbirlər təşkil edilmişdir».

Nazir qeyd etmişdir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır və bu sahədə əməkdaşlığımız strateji xarakter daşıyır. Azərbaycan ilə Aİ ölkələri investisiya, tranzit, turizm, İKT, maliyyə, əczaçılıq və tibbi avadanlıqların istehsalı, ətraf mühitin mühafizəsi, qeyri-neft məhsullarının istehsalı, qablaşdırılması, ixracı və s. sahələrdə əməkdaşlıq edə bilər.

Son zamanlar Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən sahibkarlıq sahəsində həyata keçirilən kompleks islahatlar barədə məlumat verən Ş.Mustafayev qeyri-neft sektorunun inkişafının, iqtisadiyyatın şaxələndirilməsinin, idxaldan asılılığın azaldılmasının, tranzit imkanlarından səmərəli istifadənin prioritetliyini qeyd etmişdir. Bildirilmişdir ki, son zamanlar həyata keçirilən islahatlar çərçivəsində sahibkarlıq sahəsində aparılan yoxlamalar dayandırılmış, lisenziyaların sayı kəskin azaldılmış, gömrük prosedurları sadələşdirilmiş, Apelyasiya şuraları yaradılmış, maliyyə bazarlarına nəzarət gücləndirilmiş, Tranzit daşımaları üzrə Koordinasiya Şurası fəaliyyətə başlamışdır: «İqtisadi islahatların mühüm istiqamətlərindən biri də investisiyaların təşviqi ilə bağlıdır. İnvestisiya təşviqi sənədini almış sahibkarlar mənfəət və gəlir vergisinin 50 faizindən, əmlak və torpaq vergisindən, həmçinin idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə idxalda ƏDV-dən və idxal rüsumlarından 7 il müddətinə azad edilirlər. Ölkə ərazisində sənaye parkları və məhəllələri, aqroparklar yaradılır ki, burada dövlət tərəfindən sahibkarlar üçün hər cür şərait mövcuddur. Əlbəttə, yaradılan azad ticarət zonası da avropalı iş adamlarına əməkdaşlıq üçün yeni imkanlar açacaqdır. Bütün bunlar ölkə iqtisadiyyatına investisiya qoyuluşunu və iş adamları arasında əlaqələrin genişləndirilməsini stimullaşdırır».

Aİ-nin Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Malena Mard Azərbaycan ilə Aİ arasında əlaqələr və əməkdaşlığın genişləndirilməsi imkanlarından danışmışdır. Qeyd etmişdir ki, Azərbaycanda iqtisadi islahatlar aparılır, ölkə iqtisadiyyatının çoxşaxəli inkişafı istiqamətində göstərilən cəhdlər artırılır və bu da bazarda marağı olan Avropa şirkətləri üçün daha çox imkan yaradır: «Aİ Azərbaycanın ən böyük iqtisadi tərəfdaşı kimi bu ölkəyə xarici birbaşa investisiyaların əsas hissəsini təmin edir. 2009-2013-cü illərdə xarici birbaşa sərmayə Aİ ilə Azərbaycan arasında 2 dəfədən çox artmışdır. Bu, çox mühüm göstəricidir, Azərbaycanla uzunmüddətli öhdəliyimizi ifadə edir. Aİ islahatların aparılması istiqamətində hökumətin göstərdiyi cəhdləri dəstəkləməyə hazırdır».

Alman-Azərbaycan Xarici Ticarət Palatasının idarə heyətinin sədri Samir Axundov çıxışında iş adamları arasında əlaqələrin genişləndirilməsi baxımından biznes forumlarının və işgüzar görüşlərin əhəmiyyətindən danışmışdır: «Azərbaycan bazarı resurslarla zəngin, dinamik və kifayət qədər geniş imkanlara malikdir. Ölkəmiz əlverişli nəqliyyat infrastrukturu ilə də seçilir. Ümid edirəm ki, keçirilən biznes forumları şirkətlər arasında şəbəkələşməni və əlaqələri genişləndirəcək və bu da öz növbəsində ticarət və iqtisadi fəaliyyəti daha da artıracaqdır».

Forumda Niderland Parlamentinin keçmiş senatoru, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti Rene van der Linden, Avropa Ticarət Palataları Prezidentliyinin üzvü Georgi Stoev və Şərq Qonşuluğunda Regional Proqramlar Bölməsinin rəhbəri Vassilis Maragos da çıxış edərək tədbirin əhəmiyyətini vurğulamışlar.



## Ötən il Azərbaycanla Avropa İttifaqı arasında ticarət dövriyyəsinin həcmi ümumi ticarətdə 47%, 2016-cı ilin ilk rübündə isə 43% olmuşdur

Forumdan sonra kənd təsərrüfatı və qida sektorunda, nəqliyyat, logistika, turizm sahəsində və ümumilikdə Azərbaycanda biznes imkanları mövzularında panel iclasları, iş adamları arasında ikitərəfli görüşlər də keçirilmişdir.

**Aytən NƏBİYEVA**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Uçotda əsaslı və cari təmir məsrəflərinin fərqləndirilməsi

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının «Q-19» nömrəli «23» sentyabr 2014-cü il tarixli Qərarı ilə təsdiq edilmiş «Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar»a əsasən, mühasibat uçotunda təmir məsrəfləri iki hissəyə bölünüb: əsaslı təmir məsrəfləri və cari təmir məsrəfləri.

**Əsaslı təmir məsrəfləri** - əsas fondların istismar müddətinin uzadılması məqsədilə smeta sənədləri əsasında hesabat dövründə bir dəfədən çox olmamaq şərti ilə yerinə yetirilən işlər üzrə onların tam və ya əhəmiyyətli dərəcədə bərpasına, o cümlədən tam aşınmış (köhnəlmiş), sıradan çıxmış əsas fondların struktur komponentlərinin bütün hissələrinin sökülməsinə və dəyişdirilməsinə çəkilmiş məsrəflərdir.

**Cari təmir məsrəfləri** - əsas fondların hər bir kateqoriyasının saxlanılması, istismarı və vaxtından əvvəl köhnəlməsinin qarşısının alınması üçün (o cümlədən ayrı-ayrı hissələrinin dəyişdirilməsi, bərpası, rənglənməsi, yağlanması, sazlanması) üçün onlara texniki baxışın keçirilməsi və texniki xidmətin göstərilməsi ilə bağlı olan məsrəflərdir.

Bu iki anlayış haqqında verilən tərifin daha anlaşıqlı olmasına ehtiyac vardır. İlk baxışda bu iki məsrəf növü «böyük» və «kiçik» anlamına gəlir. Bəzən elə təmir məsrəfləri olur ki, təsnifləşdirilməsi çətin olur və ya təsnifləşdirmək (təmirə aidiyyətinin olub-olmamasını aydınlaşdırmaq) mümkün olmur. Məsələn, avtomobilin mühərrikinin işləməsi üçün istifadə olunan yanacaq (benzin, dizel) təmir məsrəfi deyil, ancaq istifadə olunan sintetik yağ təmir məsrəfidir.

Əgər təmir məsrəflərinin göstərilən iki növündən birinin, məsələn əsaslı təmir məsrəflərinin mahiyyəti haqqında tam bilgilərə nail olsaq, praktiki olaraq qalan bütün təmir məsrəflərini cari təmir məsrəflərinə aid etmək olar. «Əsaslı təmir məsrəfləri» anlayışındakı ayrıca götürülmüş bəzi ifadələrə diqqət yetirək. Anlayışın məzmunundan dolayısı ilə məsrəfin «əsaslı» hesab edilməsi ilə bağlı «tələbləri» görmək mümkündür. Anlayışın məzmununu «parçalamaqla» tələbləri müəyyən edək.

1-ci təmir smeta sənədləri əsasında olmalıdır.

2-ci təmir hesabat dövründə bir dəfədən çox olmamaq şərti ilə aparılmalıdır.

3-cü təmiri həyata keçirilən əsas fond tam aşınmış (köhnəlmiş) olmalıdır.

4-cü təmir zamanı əsas fondun struktur komponentlərinin bütün hissələri sökülməli və dəyişdirilməlidir.

«Smeta sənədləri əsasında» dedikdə, söhbət tikinti işlərindən gedə bilər. Adətən smetalar tikinti və tikinti-quraşdırma işləri üçün tələb olunan sənəd formasıdır. Ona görə də, təmir məsrəfləri tikinti işləri ilə əlaqədardırsa, müvafiq qaydada smeta sənədi olmalıdır ki, məsrəflər «əsaslı» hesab edilsin. Digər tərəfdən eyni adlı (eyni istiqamətli) təmir məsrəfləri ildə bir dəfədən artıq olmamalıdır. Əgər hər hansı tikinti işi smeta sənədsiz həyata keçirilirsə və bu işin görülməsində müvafiq icra hakimiyyəti orqanları tərəfindən smetasız işin görülməsinə etiraz edilməmişdirsə, belə tikinti-təmir işləri «əsaslı» hesab edilməyərək, «cari» təmir məsrəflərinə aid edilə bilər. Məsələn, ofis binasının otaqlarından birində rütubətli hava səbəbindən divar kağızları xarab olmuş və qopub tökülmüşdür. Aydındır ki, belə xərc üçün smeta hazırlanmasına ehtiyac yoxdur. Sadəcə olaraq divarın üst qatı sökülməli, təmizlənməli və yeni divar kağızı ilə bərpa olunmalıdır. Belə təmir məsrəfləri «cari» hesab ediləcəkdir. Digər bir misal olaraq məsələn, ofis binasının dam örtüyü (dəmir lövhələri) tam sıradan çıxmışdır və dam örtüyü bütövlükdə dəyişdirilməlidir. Dam örtüyünün dəyişdirilməsi üçün mövcud tikinti qaydalarına görə müfaviq icra hakimiyyəti orqanına müraciət olunmalı və razılaşdırıldıqdan sonra tikintisi həyata keçirilə bilər. Bunun üçün də yeni smeta hazırlandıqdan sonra tikinti aparılacaqdır. Belə təmir məsrəfi «əsaslı» hesab ediləcəkdir. Lakin dam örtüyünün bir və bir neçə xarab olmuş dəmir lövhəsinin yenisi ilə əvəz edilməsi «cari» təmir məsrəfi hesab ediləcəkdir.

Anlayışın məzmununda təmiri həyata keçirilən əsas fondun tam aşınmış (köhnəlmiş) olduğu göstərilir. Anlayışın bu məzmununda nəzərdə tutulan əsas fondların təmiri üçün smeta sənədlərinin olması tələbi yoxdur. Dolayısı ilə məzmunun bu hissəsi daha çox maşın və avadanlıqlara, nəqliyyat vasitələrinə, tikili və qurğu olmayan digər əsas vəsaitlərə aid edilir. Burada «tam aşınmış (köhnəlmiş)» dedikdə, «tam amortizasiya olunmuş» kimi başa düşülməməlidir. Çünki, mühasibat uçotunda əsas vəsait uçot siyasətinə uyğun olaraq tam amortizasiya tətbiq olunduqdan sonra ya hər hansı formada çıxdaş edilir (ya satılır, ya da ləğv edilir), ya da yenidən qiymətləndirildikdən sonra yeni amortizasiya tətbiqinə başlanılır. Hər bir halda əsas vəsaitin əsaslı təmiri üçün həmin əsas vəsait fiziki baxımdan tam aşınmış (tam köhnəlmiş) olmalıdır. Deməli, əsas vəsait istismardadırsa, tam aşınmayıbsa, bu əsas vəsaitə çəkilən təmir məsrəfləri «cari» hesab ediləcəkdir. Əlbəttə, əsaslı təmir məsrəflərinin çəkilməsi nəzərdə tutulan əsas vəsaitin tam aşınması (köhnəlməsi) barədə aktın (məsələn qüsur aktının) tərtib olunması və təsdiqlənməsi əsasverici sənəd hesab edilə bilər.

Anlayışın məzmununda təmiri həyata keçirilən tam aşınmış əsas fondun struktur komponentlərinin bütün hissələrinin sökülməsi və dəyişdirilməsi nəzərdə tutulur. Əgər tam aşınmış (köhnəlmiş) əsas vəsaitin hər hansı struktur komponentinin bir və ya bir neçə hissəsi dəyişdirilərsə, belə təmir məsrəfləri «cari» hesab ediləcəkdir.

Məsələn, mühərriki xarab olmuş nəqliyyat vasitəsi tam köhnəlmişdir, lakin mühərriki təmir etməklə nəqliyyat vasitəsindən istifadə etmək olar. Bu avtonəqliyyat vasitəsinin struktur komponenti kimi mühərriki nəzərdə tutmaq olar. Bütövlükdə mühərrik sökülüb yenidən ona lazım olan ehtiyat hissələr alınmaqla yığıldığı halda belə təmir məsrəfi «əsaslı» olacaqdır.

Amma ortaya bir maraqlı məqam çıxır. Əgər işlək (istismarda) olan, lakin tam köhnəlməyən (hələ tam aşınmayan) nəqliyyat vasitəsinin isitisinmarı zamanı təsadüfən mühərriki tam sıradan çıxmışdırsa, bu avtonəqliyyat vasitəsinin də mühərrikini struktur komponenti kimi nəzərdə tutmaq olar. Lakin, bu nəqliyyat vasitəsinin bütövlükdə mühərriki sökülüb yenidən ona lazım olan ehtiyat hissələr alınmaqla yığıldığı halda belə təmir məsrəfi «cari» hesab ediləcəkdir, çünki, nəqliyyat vasitəsi tam aşınmamışdır. Digər tərəfdən tam aşınmayan nəqliyyat vasitəsinin mühərrikinin (yəni, struktur komponentinin) ayrıca olaraq bir və ya bir-neçə hissəsi, məsələn, motor kəməri, klapanlar və ya mühərrikin tam sökülməsinə ehtiyac qalmadan dəyişdirilməsi mümkün olan ehtiyat hissələr yenisi ilə əvəz edilərkən, bununla bağlı bütün təmir məsrəfləri «cari» hesab ediləcəkdir.

Ümumiyyətlə, belə qənaətə gəlmək olar ki, hər hansı tam aşınmış (tam köhnəlmiş) əsas vəsaitin tərkibini struktur komponentlərə bölmək mümkündürsə və belə struktur komponent bütövlükdə dəyişdirilirsə (tam təmir olunursa), tam aşınmış (tam köhnəlmiş) belə əsas vəsaitin təmir məsrəfləri (əsaslı) hesab ediləcəkdir. Adətən, struktur komponentlərdən ibarət olan və ya struktur komponentlərə bölmək mümkün olan əsas vəsaitlər daha həcmli olurlar. Kiçik ölçülü həcmi olan əsas vəsaitlərin hər hansı hissəsinin təmirini «cari» hesab etmək olar. Məsələn, kompüter dəsti kiçik həcmli əşyadır və bu dəstin işçi qutusunu, monitorunu, klaviaturasını, mousunu yenisi ilə əvəz edərkən və ya təmir edərkən, belə təmir məsrəflərini «cari» hesab etmək olar. Yaxşı olar ki, hər hansı əsas vəsait istismara verilərkən, ayrıca struktur komponentləri vardırsa, bu barədə istismar aktında xüsusi qeydlər göstərilsin ki, mühasibatlıqda təmir məsrəflərinin istiqamətinin müəyyənləşdirilməsi asanlaşsın.

*Hörmətli oxucular, bütün göstərilən təhlillər mühasibat uçotu məqsədləri daşıyır və bu təhlillər anlayışların məzmununun leksik mənalarına istinadən mütəxəssis fikridir. Bu təhlillər oxuculara təmir məsrəflərinin təsnifləşdirilməsinin təyin edilməsində tövsiyə oluna bilər.*

## Vergi ödəyicilərinə xidmət mərkəzləri müasir dövrün tələblərinə cavab verir

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, vergilərlə bağlı elektron xidmətlərdən əhalinin istifadəsinin asanlaşdırılması və artırılması məqsədilə bölgələrdə, xüsusən vergi orqanı olmayan şəhər və rayonlarda xidmət mərkəzləri yaradılmışdır. Vergilər Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində indiyədək 56 şəhər və rayonda müasir dövrün tələblərinə cavab verən Vergi ödəyicilərinə xidmət mərkəzi istifadəyə verilmişdir. Bu mərkəzlər vasitəsilə Vergilər Nazirliyinin ayrı-ayrı strukturları tərəfindən göstərilən xidmətlər vahid məkanda həyata keçirilir. Bu mərkəzlər vasitəsilə vergi ödəyicilərinə aşağıdakı xidmətlər göstərilir:

♦ «Asan imza» ilə bağlı sertifikat xidmətlərinin göstərilməsi;

♦ Vergi qanunvericiliyinə dair suallların cavablandırılması;



♦ Elektron xidmətlərdən istifadəyə dair müraciət edən şəxslərə kömək göstərilməsi;

♦ Qeydiyyatla bağlı xidmətlərin göstərilməsi;

♦ Uyğunsuzluqların araşdırılması;

♦ Yazılı (kağız daşıyıcısında) müraciətlərin qəbulu və emalı;

♦ Bəyannamələrin, hesabatların, arayışların və digər sənədlərin qəbulu;

♦ Vergilərə dair ərizə və hesabat formalarının, buklet və başqa nəşrlərin verilməsi;

♦ Müraciət edən şəxslərə hazır sənədlərin təhvil verilməsi;

♦ Müraciət edən şəxslərlə hazır sənədlərlə bağlı telefon əlaqəsinin yaradılması;

♦ Vergidən yayınma halları barədə məlumatların qəbulu;

♦ Vergi orqanının və onun vəzifəli şəxslərinin hərəkət və ya hərəkətsizliyi barədə şikayətlərin qəbulu;

♦ Özünə xidmət.

Sahibkarların məlumatlandırılması, onlara vergi öhdəliklərinin yerinə yetirilməsində zəruri metodiki köməyin, habelə elektron xidmətlərin göstərilməsi mərkəzlər tərəfindən ödənişsiz həyata keçirilir. Ödəyicilər vergi orqanına getmədən burada qeydiyyata alına, ərizə və bəyannamələrini göndərə bilirlər. Büdcəyə olan vergi borcu, onun yaranma səbəbləri və digər məsələlər barədə ətraflı məlumatların da bu mərkəzlərdən əldə edilməsi mümkündür.

Xidmət mərkəzlərinin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasında nazirliyin «Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası»nın xüsusi rolu olmuşdur. Konsepsiyada vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı və bununla bağlı həyata keçiriləcək layihələrin hədəfləri müəyyən edilmişdir və bu işlər mərhələli şəkildə aparılır. Vergi ödəyicilərinə göstərilən xidmətlərin spektrinin genişləndirilməsi nəzərdə tutulmuş və buna uyğun olaraq, «Vergi ödəyicilərinə xidmət mərkəzində vergi ödəyicilərinin qəbulu və xidmətin təşkili Qaydaları» təsdiq edilmişdir. Beləliklə, vergi ödəyicilərinin hər hansı vergi məsələsi ilə əlaqədar ərazi vergi idarələrinə getmələrinə ehtiyac qalmır. Çünki ödəyicilər həmin xidmətləri fəaliyyət göstərdikləri və ya yaşadıqları yerə yaxın xidmət mərkəzinə müraciət etməklə əldə edə bilirlər.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsindən aldığımız məlumata görə, 2016-cı ilin aprel ayında vergi ödəyicilərinə xidmət strukturlarında qəbul edilmiş vergi ödəyicilərinin sayı 53.392 nəfər, göstərilmiş xidmətlərin sayı 78.082 olmuşdur. Vergilər Nazirliyinin Bakı şəhəri Mirəli Qaşqay 56 ünvanında yerləşən xidmət mərkəzinə aprel ayında 5251 nəfər müraciət etmiş, onlardan 5059 şəxsə 7078 sayda xidmət göstərilmişdir. Xidmətlərin növləri isə aşağıdakı kimi olmuşdur:

• elektron xidmətlərin göstərilməsi (33,3%);

• yazılı (kağız daşıyıcısında) müraciətlərin qəbulu (25,2%);

• hazır sənədlərin təhvil verilməsi (15,9%);

• şifahi xidmətlərin göstərilməsi (15,3%);

• bəyannamələrin, hesabatların, arayışların və digər sənədlərin qəbulu (8,5%);

• vergilərə aid ərizə və hesabat formalarının, buklet və başqa nəşrlərin verilməsi (1,0%);

• özünə xidmət üzrə (0,8%).

Göstərilən elektron xidmətlər isə əsasən bu istiqamətlərdə olmuşdur:

• vergi bəyannamələrinin (hesabatların) vergi orqanına elektron qaydada təqdim edilməsi- 69,9%;

• fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması - 7,8%;

• ərizə, arayış və məktubların vergi orqanına onlayn göndərilməsi - 4,8%;

• bank idarələrində hesabların açılması - 4,8%;

• fiziki şəxsin uçot məlumatlarının onlayn dəyişdirilməsi - 2,5%.

Onu da qeyd edək ki, bəyannamə və hesabatların vergi orqanlarına təqdim edildiyi dövrlərdə, məsələn, ayrı-ayrı tədiyyələr üzrə ən çox bəyannamə və hesabatların təqdim olunduğu yanvar-mart aylarında və hər rübün sonunda sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edildiyi dövrdə xidmət mərkəzlərinə müraciət edən vergi ödəyicilərinin sayı daha çox olmuşdur.

Cari ilin aprel ayı ərzində ümumilikdə təqdim edilməli olan 203.185 vergi bəyannaməsindən (ƏDV, aksiz vergisi, mədən vergisi, yol vergisi, sadələşdirilmiş vergi, muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi, xüsusi notariusların gəlir vergisi və dövlət rüsumu bəyannamələri) 181.397-si və ya 89,3%-i vaxtında, onların da 170.753-ü və ya 94,1%-i elektron qaydada təqdim edilmişdir. Yeri gəlmişkən, vergi ödəyicilərinə xidmət strukturları tərəfindən ümumilikdə 209.118, o cümlədən aprel ayında 5617 sayda ASAN İmza sertifikatı verilmişdir.

Vergi ödəyicilərinin hansı məsələlərlə bağlı müraciət etməsi, onları narahat edən məqamlar Vergilər Nazirliyində mütəmadi təhlil edilir və əldə olunan nəticələrlə bağlı müvafiq tədbirlər həyata keçirilir. Təhlillər göstərir ki, indiyədək xidmət mərkəzlərinə ən çox vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi üzrə suallara aydınlıq gətirilməsi, məlumat və izahatların alınması, bəyannamə və hesabatların elektron formada göndərilməsi, vergi borclarının və onun yaranma səbəblərinin öyrənilməsi ilə əlaqədar müraciətlər edilmişdir.

Vergilərin vaxtında və tam məbləğdə büdcəyə ödənilməsi imkanlarının genişləndirilməsi məqsədilə yaxın gələcəkdə xidmət mərkəzlərində ödəniş terminallarının tətbiq olunması, xidmət səviyyəsini müəyyən etmək və artırmaq üçün avtomatik növbə və qiymətləndirmə avadanlıqlarının quraşdırılması, xidmət mərkəzlərinin interyerinin mövcud qaydalara uyğun yenidən dizaynı və texniki təchizatının yaxşılaşdırılması nəzərdə tutulur.

**Rəşad SADIQOV**

## Əmək fəaliyyəti ilə məşğul olmaq istəyən əcnəbilərin sayı artır

Azərbaycan mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığorta haqqına cəlb olunan digər gəlirləri əldə edən əcnəbilərin fərdi uçot sistemində qeydiyyata alınması onların gələcək sosial təminat və pensiya hüquqlarının formalaşmasına imkan yaradır. Bu səbəbdəndir ki, əcnəbilərin fərdi uçot sisteminə marağı artır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, bu ilin yanvar-aprel aylarında nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində fərdi şəxsi hesabı açılan xarici ölkə vətəndaşlarının sayı 2129 nəfər artaraq 29.994 nəfərə çatıb. Həmin şəxslərdən 89,1 faizi kişilər, digərləri isə qadınlardır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə isə sistemdə qeydiyyata alınan əcnəbilərin sayı 990 nəfər çoxalıb.

Hazırda fərdi uçot sistemində qeydiyyatda olan əcnəbilər sırasında Türkiyə, Gürcüstan, Rusiya, Hindistan, İran, Çin, Banqladeş, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Pakistan, Ukrayna, Filippin və s. ölkələrin vətəndaşları çoxluq təşkil edirlər. Ümumilikdə isə sistemin əhatə etdiyi əcnəbilər 120-yə yaxın ölkəni təmsil edirlər.

Bununla yanaşı, əcnəbilər tərəfindən Azərbaycanda olma qaydalarını pozanlar da az deyil. Təkcə bu ilin aprel ayı ərzində 1706 əcnəbi tərəfindən Azərbaycanda olma, habelə müvəqqəti və daimi yaşama qaydalarına əməl etmədən inzibati qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edilib. Dövlət Miqrasiya Xidmətindən verilən məlumata görə, onlardan 21-nin Azərbaycan ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün əsas verən sənədləri itirildiyindən yenisi ilə əvəz olunub, 137 nəfərin ölkə ərazisində yaşamaları leqallaşdırılıb, 1214 əcnəbinin Azərbaycan ərazisini 48 saat ərzində tərk etməsi, 334 əcnəbinin isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılması barədə qərarlar qəbul edilib.

Ümumiyyətlə, bu ilin aprel ayı ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi və mövcud iş icazələrinin müddətlərinin uzadılması ilə bağlı 9384 müraciət daxil olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun qaydada araşdırılıb və müvafiq qərarlar qəbul edilib.

**AYTƏN**

beynəlxalq panoram

# Ukraynada daşınmaz əmlak vergisi sərtləşdiriləcək




Rəsmi məlumata görə, ölkədə 2015-ci ildə əmlak vergisini əhalinin təxminən 1 faizi ödəyib. 2016-cı ildə isə daha aşağı vergi güzəştlərinin tətbiqi sayəsində büdcəyə onlarla dəfə artıq vəsaitin ödənilməsi gözlənilir. Daşınmaz əmlaka vergi tətbiqinin dəyişdirilməsinə 2011-ci ildən başlanılmış, 2014-cü ilə qədər davam etmişdir. 2014-cü ildə güzəştlər saxlanılmaqla vergi ümumi yaşayış sahəsinə tətbiq edildi. 2015-ci ildə isə vergi dərəcəsinin həddi daşınmaz əmlakın hər kvadratmetri üçün minimum əməkhaqqının 1 faizindən 2 faizinə qaldırılmışdı və vergi dərəcəsinin tənzimlənməsi funksiyaları yerli özünüidarə şuralarına verildi. Artıq Ukraynanın Maliyyə Nazirliyi, əmlakın sahəsindən asılı olmayaraq, bütün mənzillərdən və yaşayış evlərindən vergi tutmağı planlaşdırır.

Vergi Məcəlləsində ayrıca «dəbdəbə» vergisinin tətbiqi ilə bağlı dəyişiklik də nəzərdə tutulur. Bu vergi sahəsi 300 kvadratmetrdən böyük olan mənzillərə və 500 kvadratmetrdən böyük olan fərdi evlərə tətbiq ediləcək. Kiçik sahəli mənzillər üzrə isə vergi hər kvadratmetr üçün minimum əməkhaqqının 0-3 faizi qədər müəyyənləşdiriləcək.

# Bir sıra ştatlar vergi şəffaflığının olmamasında ittiham edilib

Böyük Britaniyanın Baş naziri Devid Kemeron ABŞ-ın «Antikorrupsiya koalisiyasının» tam üzvü olacağına şübhə ilə yanaşdığını bildirmişdir. Onun fikrincə, ABŞ-ın bəzi ştatları vergi şəffaflığına görə Britaniyanın ada dövlətləri səviyyəsinə belə gəlib çatmamışlar.

Bu sərt bəyanat, ABŞ da daxil olmaqla, 40-dan artıq ölkənin nümayəndələrinin iştirak edəcəyi korrupsiya məsələləri üzrə sammit ərəfəsində verilmişdir. D.Kemeron demişdir: «Məsələn, Delaver ştatında çoxlu sayda şirkət qeydiyyata alınsa da vergi şəffaflığı çox aşağı səviyyədədir. Biz bütün ölkələrlə iş aparmalıyıq ki, onları tələblərin birgə artırılmasının daha səmərəli olduğuna inandıra bilək. Mən bunu etməyə hazıram və ümidvaram ki, ABŞ da hazırdır».

Bəzi Britaniya adaları ABŞ-ı ikili standartdan istifadədə ittiham edir. Məsələn, Bermud adalarının Baş nazirinin müavini Robert Riçards demişdir ki, ABŞ və Böyük Britaniya kiçik ölkələri qanunlara ciddi riayət etməyə təhrik etsələr də, özləri buna heç də həmişə əməl etmirlər.

# Çin resurslardan istifadə vergisi üzrə islahata başlayacaq

İyul ayının 1-dən ölkədə təbii resurslardan istifadə sahəsində aparılması nəzərdə tutulan islahat qüvvəyə minəcək. Bu, Çinin vergi sisteminin islahatı yolunda 2016-cı ildə atdığı daha bir addımdır: bundan əvvəl - may ayının 1-dən təsərrüfat fəaliyyətinin aparılmasına tətbiq edilən vergi ƏDV ilə əvəz olunmuşdu. Çinin Baş Dövlət Vergi İdarəsinin məlumatında göstərilir ki, ölkənin şimalında yerləşən Hebey əyalətində su vergisinin tutulması ilə bağlı eksperimentin tətbiqinə başlanılacaq. Bu vergi yeraltı və yerüstü su obyektlərindən suyun götürülməsinə tətbiq ediləcək. Bununla yanaşı, daha çox su sərf edən sənaye sahələri və sudan müəyyənləşdirilmiş normadan artıq istifadə edən müəssisələr üçün tariflər də artırılacaq. Suyun normal məişət istifadəsi üçün vergi yükü isə əvvəlki səviyyədə saxlanılacaq. Əldə olunacaq nəticələrə əsaslanaraq, hökumət eksperimentin coğrafiyasını genişləndirməyi nəzərdə tutur. Əgər layihə uğurla davam edərsə, yeni vergi növü bütün ölkə ərazisini əhatə edəcək.

Çində meşə resurslarından, örüşlərdən və qumluqlardan təsərrüfat məqsədilə istifadə də vergiyə cəlb olunacaq. Əyalət administrasiyalarına tapşırılmışdır ki, bu sahədəki resurslardan istifadənin vergiyə cəlb olunması üçün həmin regionun şərtlərinə uyğun konkret layihələr işləyib hazırlasınlar. Bu dəyişikliklərdən əlavə, Çində kəmiyyətə əsaslanan verginin dəyərə əsaslanan vergi ilə əvəz olunması da planlaşdırılır. Yeni vergi sistemi neft, təbii qaz, kömür, nadir elementlər, volfram, molibden və faydalı qazıntıların əksər hissəsini əhatə edəcək.



# Polşa «TAX free»yə düşən məbləği artırır

Ölkənin Maliyyə Nazirliyindən bildirilmişdir ki, iyunun 1-dən Avropa İttifaqı ölkələri vətəndaşı olmayan şəxslərin Polşada etdikləri alış-veriş üçün «TAX free» məbləği artırılacaq. Hökumətin bu qərarı bir sıra malların bahalaşması ilə izah edilir.

Yeni qaydaya əsasən, artıq gələn aydan Polşada alış-veriş zamanı ödənilən ƏDV-nin (sənaye malları üçün 23%, ərzaq malları üçün isə 7%) qaytarılması mümkün olacaq. Bu qaydadan faydalanmaq üçün alış-veriş məbləğinin 78 dollardan az olmaması şərtdir. Hazırda isə «TAX free» tərtib etməkdən tələb olunan məbləğ həddi 52 dollar təşkil edirdi.

## Xəbər lenti

**Rusiya** hökumətinin 2018-ci ildən, növbəti prezident seçkilərindən sonra vergiləri əhəmiyyətli şəkildə artırmaq niyyətində olduğu barədə xəbərlər yayılmışdır. Rəsmi mənbələrə əsaslanan xəbərlərdə gözlənilən dəyişikliyin gəlir vergisinə və ƏDV-yə aid olacağı bildirilir.

**Yaponiya**nın Baş naziri Sindzo Abe 2017-ci ildə tətbiq edilməsi nəzərdə tutulan istehlak vergisinin artırılması barədə qərarın ləğv olunduğunu bildirmişdir.

**İtaliya**nın Baş naziri Matteo Rensi bildirmişdir ki, hökumət bəyan edilməmiş aktivlər və ölkə vətəndaşlarının gəlirləri barədə informasiyanın könüllü açıqlanması proqramının (proqramın icrası keçən ilin noyabr ayında dayandırılmışdı) bərpa etmək məsələsinə baxır.

**Ukrayna**nın maliyyə naziri Aleksandr Danilyuk ölkənin hazırkı iqtisadi vəziyyətini və maliyyə böhranından çıxış yolunu şərh edərkən demişdir ki, onsuz da böyük itkilərlə üzləşən dövlət vergilərin azaldılmasına yol verə bilməz.

**Avstraliya** hökuməti yeni turist vergisinin təxirə salınması barədə qərar çıxarmışdır. İyulun 1-dən turistlərin və ya işçi viza ilə ölkəyə gələn müvəqqəti işçilərin burada qazandıqları hər dollardan 32,5 sent vergi ödəyəcəkləri nəzərdə tutulmuşdu.

**Almaniya**nın Nazirlər Kabineti elektriklə işləyən avtomobillərin satışına vergi güzəştlərinin tətbiqini qəbul etmişdir. Bu tədbir elektriklə işləyən nəqliyyat vasitələrinin on ilədək yol vergisindən azad olunması çərçivəsində həyata keçirilir. Qanun keçmiş tarixlə - 2016-cı il yanvarın 1-dən qüvvəyə minəcək.

**İrlandiya** hökuməti «vergi sistemini daha da səmərəliləşdirmək və iqtisadi inkişaf üçün əlverişli etmək yolunda irəliləyişə nail olmalıdır», - Avropa Komissiyasının nəşr etdirdiyi son tövsiyələrdə bildirilir. Komissiyanın rəyinə görə, vergi bazasının genişləndirilməsi sahəsində hökumətin səylər məhdud olmuşdur.

**Tayvan** hökumətinə maliyyə bazarlarını stimullaşdırmaq üçün Maliyyə Nəzarəti Komissiyası (FSC) tərəfindən investorların ödədikləri vergilərin aşağı salınması tövsiyə edilmişdir.

# Təqaüdçülərin vergi öhdəliyi barədə saziş

Finlandiya və Portuqaliya arasında imzalanmış yeni sazişə əsasən, Portuqaliyaya köçmüş pensiya yaşlı Finlandiya vətəndaşları vergilərdən yayınmaq imkanını itirəcəklər. İndiyə qədər Finlandiyanın yalnız keçmiş dövlət sektoru işçilərini Portuqaliyada ödənilən pensiyaya görə vergiyə cəlb etmək hüququ var idi. Digər sahələr üzrə təqaüdə çıxmış insanlar isə bu ölkədə yaşayarkən 10 il vergidən azad edilmişdilər. Onların bu imtiyazı 2016-cı ilin aprel ayından əllərindən alınıb.

Onu da qeyd edək ki, 2015-ci ildə İspaniya ilə də analoji saziş bağlanmışdı.

krossvord



**Yuxarıdan aşağı:** 1.Qadınlar üçün dodaq boyası; 2.Müəyyən sözlərin başlanğıc hissələrindən, yaxud həmin sözlərin ilk hərflərindən düzəldilmiş söz (abbreviaturanın forması); 3.Bölükdən böyük, alaydan kiçik hərbi birlik; 4.Yapon əlbəyaxa döyüş sənəti; 5.Ritm-ənd-blüz üslubunda oxuyan məşhur amerikalı müğənni (1944-2003). Zənci olsa da özünə «White» - «ağ» ləqəbi götürmüşdü; 6.«Bizim Cəbiş müəllim» filmində Cəbişin həyat yoldaşını oynayan Azərbaycan aktrisasının adı; 9.ABŞ-ın xırda pul vahidi; 13.«Katyuşa» sisteminin bazasında yaradılmış reaktiv atəş sistemi; 15.Beş nəfərdən ibarət ansambl; 16.Kimyəvi element (qaz); 17.Cənubi Afrikada dövlət; 18.Görkəmli Azərbaycan bəstəkarının adı. Simfonik muğam janrında «Şur», «Kürdovşarı» və «Gülüstan Bayatı-Şiraz» əsərlərinin, eləcə də «Sevil» operasının müəllifi; 20.Ritorika termini. Yunan dilindən tərcümədə «hiss», «emissiya» mənasını verir; 21.Təyyarə və helikopter üçün nəzərdə tutulmuş qapalı tipli texniki xidmət stansiyası və dayanacaq. **Soldan sağa:** 1.Ali təhsil ocaqlarında tədrisin praktik forması; 5.Rəqəm; 7.Ötən əsrin əvvəlində məşhurlaşmış siqaret brendi; 8.Qərbi Avropada zadəgan titulu; 10.Türklərin populyarlaşdırdığı fast-fud yeməyi; 11.Təlimin forması; 12.Yunan əlifbasında 24-cü hərf; 14.Əxlaq, ənənə mənalarını verən fəlsəfi termin; 19.Ən zil müğənni səsi; 21.İttiham olunan şəxsin cinayət əməlində iştirakı olmadığını sübut edən anlayış, hüquqi termin; 22.Karbohidrogenlərin və digər üzvi birləşmələrin mürrəkkəb qarışığından ibarət spesifik iyə malik yanar maye; 23.Cinayətkar dəstənin üzvü. Bu termin, əsasən, ABŞ, İtaliya, Meksika və digər dövlətlərin cinayət qruplarına və onların üzvlərinə deyilir; 24.Fransada şəhər; 25.Xronoloji cərgədə ən vacib, birinci, üstünlüyə malik addım, seçim, əməl.



Yapon əlbəyaxa döyüş sənəti

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Pektin; 2.Tartini *(Cuzeppe)*; 3.Klişe; 4.Naqif; 5.Ritmika; 6.Polka; 7.Duplet; 13.Pyer *(Bezuxov)*; 15.Puramxi; 16.Tribun; 17.Üstüpü; 18.Plenum; 20.Qızıl; 21.Myesa. **Soldan sağa:** 1.Pitekantrop; 8.Kartinq; 9.Tulup; 10.İkike; 11.Frikase; 12.Hippi; 14.Tampa; 19.Reqress; 21.Maral; 22.Bəzz (qalası); 23.Süleyman *(Stalski)*; 24.Nil; 25.Plüralizm.


Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 10000

## idman

# Azərbaycan taekvondoçuları Avropa çempionatında...



İsveçrənin Montrö şəhərində böyüklər arasında keçirilən Avropa çempionatına yekun vurulub. Yarışın üçüncü günündə Azərbaycan millisinin üzvü Milad Beigi Hərçəqani bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb.

Ölkəmizi «Rio-2016» Olimpiya Oyunlarında təmsil edəcək M.Hərçəqani əvvəlcə serbiyalı İvan Karajlovic (13:0), sonra britaniyalı Lutalo Muhammad (13:1) üzərində inamlı qələbə qazanaraq yarımfinala yüksəlib. Bu mərhələdə polşalı Pyotr Pazinskini (16:4) məğlub edən idmançımız həlledici görüşdə türkiyəli Yunus Sarıya (5:0) qalib gələrək Avropa çempionu adına layiq görülüb.

Çempionatın sonuncu günü kişilərdən ibarət yığma komandamızın iki üzvü - Payam Qobadi Oğaz (87 kq) və Radik İsayev (87 kq+) mübarizəyə qoşulub. Xorvatiyalı Nikola Bojo, fransalı MBar NDiaye və Britaniya idmançısı Damin Samsunu məğlub edən Payam Qobadi Oğaz yarımfinalda rusiyalı Vladislav Larinlə qarşılaşıb. Finala vəsiqə uğrunda döyüşdən məğlub ayrılan həmyerlimiz yarışın bürünc medalı ilə kifayətlənib. Radik İsayev isə elə ilk döyüşündə ukraynalı idmançı Mixailo Şelestə minimal hesabla (4:5) məğlub olaraq çempionatı tərk edib.

Xatırladaq ki, yığmamızın heyətində qadın taekvondoçumuz Patimat Abakarova (53 kq) Avropa çempionatının ikinci günündə gümüş medal qazanmışdı. Beləliklə, komandamız 37 ölkədən 387 taekvondoçunun qatıldığı Avropa çempionatında 3 medal qazanıb.

Qeyd edək ki, Avropa çempionatında ölkəmizi hakim qismində Azərbaycan Taekvondo Federasiyasının (ATF) baş hakimi Elşən Quliyev təmsil edib.

# Dünya kuboku bu dəfə İran güləşçilərinə nəsib oldu

İranın Şiraz şəhərində yunan-Roma güləşi üzrə böyüklər arasında Dünya kuboku yarışları başa çatıb. Yarışda Azərbaycan ilə yanaşı, Rusiya, İran, Türkiyə, Qazaxıstan, Belarus, Almaniya və Ukrayna güləşçiləri iştirak ediblər. Azərbaycan güləşçiləri İran, Türkiyə və Ukrayna komandaları ilə «B» qrupunda mübarizə aparıb. «A» qrupunda isə Rusiya, Belarus, Almaniya və Qazaxıstan komandaları qüvvələrini sınayıb.

İlk görüşlərdən sonra qrup üçüncüsü olan yığmamız 5-ci yer uğrunda digər qrupun üçüncüsü olan Belarus yığması ilə qarşılaşıb. Hesab bərabər olsa da, qələbələrin keyfiyyətinə görə rəqib komanda qalib elan edilib. Beləliklə də yarışa gənc heyətlə qatılan Azərbaycan yığması Dünya kubokunu altıncı sırada başa vurub.

Dünya kubokunun builki sahibi isə finalda ruslara heç bir şans verməyən (8:0) İran komandası oldu. Xatırladaq ki, ötənilki yarışda yunan-Roma güləşçilərimiz Dünya kubokunu qazanaraq tarixi uğura imza atmışdılar.

# Açıq MTB yarışlarının qalibləri müəyyənləşib

Azərbaycan Velosiped İdmanı Federasiyasının 2016-cı il üçün müəyyənləşdirdiyi təqvim-plana uyğun olaraq, Dağ Velosipedi Parkında açıq MTB yarışı keçirilib. Yarışda federasiyanın nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin 40-dan artıq idmançısı iştirak edib.

U-15 yaş kateqoriyasında mübarizə aparan idmançılar uzunluğu 2 kilometr olan marşrut boyunca 3 dövrə vurublar. Məsafəni 28 dəqiqə 45 saniyəyə başa vuran 8 nömrəli Olimpiya İdman məktəbinin yetirməsi Fədail Mahmudov finiş xəttini birinci keçib.

On yeddi yaşadək velosipedçilər eyni marşrut üzrə 5 dövrə mübarizə aparıblar və «Neftçi İdman Klubu» İctimai Birliyinin təmsilçisi Vüqar Nəsibov bütün rəqiblərini qabaqlayıb.

Elit, U-23 və gənclər kateqoriyasında çıxış edən idmançılar 14 kilometr məsafə qət ediblər və mübarizə Olimpiya Ehtiyatları Velosiped İdmanı Məktəbinin üzvü Orxan Məmmədovun qələbəsi ilə yekunlaşıb.



# Van Qal getdi... Maurinyo gəlir

İngiltərənin «Mançester Yunayted» futbol klubunun hollandiyalı baş məşqçisi Van Qal postundan uzaqlaşdırılıb. Klub rəhbərliyi mütəxəssislə müqaviləni ləğv edib. Bu səbəbdən, «qırmızı şeytanlar»ın 64 yaşlı mütəxəssisə 6,5 milyon avro təzminat ödəyəcəyi bildirilir.

Britaniya mətbuatının yazdığına görə, Van Qalı «Çelsi»nin sabiq çalışdırıcısı Joze Mourinyo əvəzləyəcək. Mourinyo «Mançester Yunayted»lə beşillik müqavilə imzalayacaq və portuqaliyalı mütəxəssis yeni komandasında ilə 15 milyon avro qazanacaq.



## mozaika

# Smartfon erası sona yaxınlaşır

texnologiya

«Google»un baş direktoru Sundar Piçai deyib ki, yaxın vaxtlarda ən tanınmış gadcetlər öz yerini süni intellektə verəcək. Onun sözlərinə görə, artıq yeni dövrdə prioritetlərin dəyişməsi baş verir: «Mobilliyin birinci yerdə durduğu dünyada məhz smartfonlar və planşetlər ilkin tələbat əşyaları hesab edilir. Lakin tezliklə bu vəziyyət dəyişəcək. Elektron qurğular istifadədən çıxarılmasalar da, onlardan artıq başqa cür istifadə ediləcək. «Google» süni intellektin hazırlanması istiqamətində artıq bir çox işlər həyata keçirib».



«Eyni zamanda, intellekt assistenti hansı qurğudan istifadə etməyinizdən asılı olmayaraq, sizi izləmək imkanına malik olacaq. Bu yanaşma «Microsoft» sisteminin öz proqramı əlavəsi olan «Cortana»dan faydalanmaq prosesinə çox bənzəyir. Məhz «Google» texnologiyalar bazarında bu yenilik inqilabına imza atacaq, çünki bu şirkət axtarış sistemi barədə digər firmalardan daha çox məlumata malikdir», - deyə baş direktor bildirib.

Qeyd edək ki, «Google» hazırda müxtəlif növ süni intellekt üstünlüklərini özündə birləşdirən layihə üzərində işləyir.

# Məsafədən işləyən unikal displey

«Microsoft Research»in tədqiqatçılar qrupu tərəfindən nümayiş etdirilmiş yeni smartfonun displeyi insan barmaqlarını kiçik məsafədən «tanıyır». «Pre-Touch Sensing» texnologiyası istifadəçi-smartfon əlaqəsi üçün yeni imkanlar açır. Sözügedən texnologiyanın yaradıcıları displeyin kiçik məsafədən barmağı «tanıması» bacarığını nümayiş etdiriblər.



«ICTnews» Elektron Xəbər Xidməti «mail.ru» saytına istinadən yazır ki, istehsalçılar «Pre-Touch Sensing» texnologiyasını yeni jestlərin yaradılması üçün istifadə etməyi təklif edirlər. Təqdimat videosunda texnologiyanın yaradıcıları barmağı ekrana yaxınlaşdırdıqda videopleyerin interfeysinin görünməsini nümayiş etdiriblər. Smartfon, həmçinin, istifadəçinin qurğunu hansı əldə saxlamasını müəyyənləşdirərək proqramı ona müvafiq optimallaşdırır. «Microsoft Research»in əməkdaşı Ken Hinkli bildirib ki, bu texnologiya gələcəkdə mobil qurğularla əlaqə yaradılması üçün böyük potensiala malikdir.

# İnqilabi kəşf

ixtira

Yaponiyalı alim Kazue Yamaqaşi şəxsi gigiyena sahəsində inqilabi ixtira edib. Onun icad etdiyi məhlul sayəsində tez və ağrısız şəkildə dişlərdə olan çatlaqları və dəlikləri yummaq, həmçinin stomatoloqların köməyi olmadan diş emalını bərpa etmək mümkün olacaq.

Öz tərkibinə görə, o, diş emalına oxşar olduğu üçün bu məhlulu birbaşa dişə çəkmək olar. Materi-al dişlərin əsas komponenti - hidroksil-apatitlə eksperimentlər nəticəsində əldə edilib.

Əvvəlcə məhluldakı turşu çatlamış emalın üzərinə yayılır, 3 dəqiqədən sonra o kristallaşır və süni material təbii emalın strukturuna bərkiyir. Bu maddə, həmçinin, yaxşı antibakterial məhluldur.

Yapon stomatoloqlar tərəfindən aparılan testlər göstərib ki, yeni ixtira ilə müalicə olunan dişlər sağlam dişlərdən heç nə ilə fərqlənmir, hətta mikroskop altında belə, fərqlilik görünmür.

# Təmiz havada gəzinti...

sağlam həyat tərzi

Mütəmadi olaraq həftədə ən azı üç dəfə açıq havada gəzinti beynin hippokamp və digər əsas hissələrinin ölçüsünün artmasına səbəb olur. Böyük Britaniyanın «Daily Mail» qəzetinin məlumatına görə, fiziki fəaliyyət də beyini Altsheymer xəstəliyindən qoruyur.

Kentukki Universitetindən olan bir qrup amerikalı alim təcrübə yolu ilə sübut edib ki, beynin həcminin artması daha çox fiziki məşğələlər sayəsində baş verir. Tədqiqatın nəticələri «Neuro-Image» elmi jurnalının xüsusi buraxılışında dərc olunub. Təcrübə zamanı 50-dən 70 yaşadək 30 kişi və qadın qaçış cığırında bir sıra məşğələlər edib. Bundan sonra onların beyni skanerdən keçirilib. Məlum olub ki, idmanla fəal məşğul olan insanlarda beyinə oksigen və qida maddələri ilə zənginləşən qanın axını artıb.

Böyük Britaniyadan olan tədqiqatçı, Ekster Universitetinin professoru Linda Kler qeyd edib ki, gəzinti, qaçış və velosiped sürmək «uzun müddətli sağlamlıq üçün zəruri şərtdir». Böyük Britaniyanın Alzheymer Xəstəliyi Cəmiyyətinin elmi rəhbəri Kler Uolton isə əmindir ki, ürək üçün yaxşı olan beyin üçün də faydalıdır.



# «WhatsApp»dan yenilik

texnologiya

Bundan sonra kompüterləri «Windows» və «MAC» əməliyyat sistemləri ilə çalışan istifadəçilər mesencerin tətbiqini yükləməklə ondan yararlana biləcəklər.

Bunun üçün whatsapp.com saytına daxil olaraq müvafiq proqramı yükləmək lazımdır.



Qeyd edək ki, 15 ay əvvəl də istifadəçilər kompüterdə «WhatsApp»dan yararlana bilərdilər. Bunun üçün istifadəçi web.whatsapp.com saytına daxil olmalı idi. Daha sonra istifadəçi telefonda quraşdırılan «WhatsApp»a daxil olaraq «Menyu - WhatsApp Web» səhifəsinə girirdi. Brauzerdə müvafiq QR kodu skan etdikdən sonra istifadəçi kompüterdə «Whatsapp»dan yararlana bilərdilər. Dünyada ən çox istifadəçiyə malik olan sosial şəbəkə «Facebook» «WhatsApp» messencerini alıb. Şirkət rəhbərliyi bunun üçün 19 milyard dollar verib.

Hazırda «WhatsApp» istifadəçilərinin sayı bir milyardı keçib. Qeyd edək ki, «»WhatsApp» 2009-cu ildə «Yahoo» əməkdaşları tərəfindən yaradılıb. Hazırda bu proqramı smartfonların əsas əməliyyat sisteminə yükləmək olur.

**Müdriklər deyib ki...**



*«İtirdiyin vaxtı qaytara bilmədiyin kimi, elədiyin pisliyi də heç vaxt düzəldə bilməyəcəksən».*

*Con Reskin (1819- 1900)*